**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BAKALAVRİAT SƏVİYYƏSİNDƏ TƏHSİLALANLARDA KREATİVLİYİN İNKİŞAFI

| | |
|---|---|
| İxtisas: | 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi |
| Elm sahəsi: | Pedaqogika |
| İddiaçı: | **Nigar Eldar qızı Zeynalova** |

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Təhsil-1 fakültəsinin nəzdində Pedaqogika kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: pedaqogika elmləri doktoru, professor
**Hümeyir Hüseyn oğlu Əhmədov**

Rəsmi opponentlər: pedaqogika elmləri doktoru, professor
**Şəhla Qasım qızı Əliyeva**

pedaqogika elmləri doktoru, dosent
**Kamal Həsən oğlu Camalov**

pedaqoji elmlər doktoru, professor
**Yusif Xıdır oğlu Qazıyev**

pedaqogika elmləri doktoru, professor
**Şahin Tağı oğlu Tağıyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetin nəzdində fəaliyyət göstərən BED 2.15 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: tarix elmləri doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya Şurasının elmi katibi: pedaqogika elmləri doktoru, dosent
**Sərafət Aram qızı Baxışova**

Elmi seminarın sədri: pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi
**Fərrux Abbas oğlu Rüstəmov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XXI əsrdə təhsilə verilən tələblər keçən əsrdən, hətta son 30 ildən kəskin şəkildə fərqlənir. Dünyada gedən surətli inkişaf prosesləri dinamik xarakter daşıyır. Hazırda Azərbaycan da bu proseslərdən kənarda qalmır, təhsilimiz təkmilləşir, dünya təhsil sisteminə inteqrasiya edir. Bu prosesdə yeni nəsil peşəkar, yaradıcılıq qabiliyyətlərinə malik, pedaqoji vəzifələri çevik və keyfiyyətlə yerinə yetirən müəllim hazırlığı xüsusi əhəmiyyət kəsb edir. Pedaqojiyönlü ali təhsil müəssisələri tələbələri elə yetişdirməlidir ki, onlar qazandıqları peşə bacarıqları vasitəsilə şagirdləri şəxsiyyət kimi formalaşdırıb real həyata hazırlaya bilsinlər. Belə hazırlığın əsas komponenti inkişaf etmiş yaradıcı təfəkkür və onun özünüinkişaf qabiliyyətidir. Ənənəvi təhsil biliklərin davamlı və ardıcıl mənimsənilməsinə, fərdi və yaradıcı potensialı nəzərə alınmadan öyrənənlərin reproduktiv imkanlarına əsaslanırdı. Hazırda dünyada gedən ictimai, siyasi, mədəni proseslər, əmək bazarının daim dəyişən tələbləri, elm və texnikanın dayanmadan inkişafı mütəxəssisləri çətin vəziyyətdə işləmək məcburiyyətinə qoyur, onlardan yüksək erudisiya, biliklərini daim yeniləmək, tədqiqat aparmaq, peşəsinə yaradıcı yanaşma bacarıqları tələb edir. Müasir mütəxəssis yaranan vəziyyətlərə vaxtında və çevik reaksiya verməli, ixtisasını dərindən bilməli, digər sahələr üzrə məlumatlı olmalı, hər bir sahədə pedaqoji-psixoloji fəaliyyətini tənzimləməyi bacarmalıdır.

Kreativlik müasir dövrün əsas elementi olaraq məlumatın mənimsənilməsi deyil, fərqli biliklərin qurulması, yeni ideyaların yaradılması kimi səciyyələndirilir. Məhz bu səbəbdən kreativlik əsrimizin və cəmiyyətin aparıcı qüvvəsi qismində çıxış edir. Kreativliyin dəyəri, ona olan tələbat bütün sahələrdə şəxsiyyətin fərqləndirici xüsusiyyətinə çevrilərək gün-gündən yüksəlir. Buna görə də onun inkişafına, geniş yayılmasına, kultivasiyasına diqqət artırılmalıdır. Kreativlik tərəqqinin aparıcı qüvvəsi kimi iqtisadi inkişafın əsas xüsusiyyətidir. Yeni texnologiyaların, resursların meydana gəlməsi məhz

onun mövcudluğu ilə əlaqədardır. Müasir dövrdə şəxsiyyətin istənilən sahədə kreativliyə təşviqi labüddür.

Hazırda pedaqogika, həm də psixologiyada kreativliyə maraq dayanmadan artmaqdadır.

Xarici tədqiqatçılar sırasında kreativliklə bağlı C.Gilford, A.Maslou, K.Teylor, E.Torrens, E.Fromm, L.Vıqotski, D.V.Çernilevski, A.V.Morozov, A.V.Xutorskoy, V.N.Drujinin, D.B.Boqoyavlenskaya və başqalarının tədqiqatlarını qeyd etmək lazımdır. Lakin bu anlayışa münasibət birmənalı deyil. Müxtəlif alimlər onu fərqli prizmalardan təhlil etmişlər. C.Gilford, E.Torrens, V.N. Drujinin, D.V.Çernilevski, D.B.Boqoyavlenskaya onu şəxsiyyətin qabiliyyəti, A.Maslou, K.Rocers, K.Teylor şəxsiyyətin xüsusiyyəti, A.V Xutorskoy yaradıcı fəaliyyət, V.M.Şadrikov, C.Renzulli isə istedadın özünü göstərməsi kimi səciyyələndirmişlər. Əksər tədqiqatçılar bildirmişlər ki, kreativliyin mövcudluğu şəxsiyyətin yüksək yaradıcı nailiyyətlərinə zəmin yaratmır. V.N.Drujininın fikrincə, kreativlik özünün inkişafı prosesində "şəxsiyyətin dərin xüsusiyyəti" olaraq qala bilər və təlim-tərbiyə prosesində inkişaf etməz.

Ənənəvi təhsil təcrübəsində formalaşmış təcrübə öyrənənlərdə kreativliyin inkişafına istiqamətlənməmiş, əksinə, öyrənənlərdə əzbərçiliyin formalaşmasına yönəlmişdir. Tədqiqatçılar təlim prosesinin iştirakçılarında (müəllim, şagird və s.) kreativliyin inkişaf problemini də araşdırmışlar. Müşahidələr fərqli pedaqoji şəraitlərdə həyata keçirilmişdir. Çox təəssüf ki, Azərbaycanda problemlə bağlı tutarlı tədqiqatlar, elmi məqalələr yox səviyyəsindədir. Alimlərimiz şəxsiyyətin yaradıcılıq qabiliyyətlərinin tədqiqinə diqqət yönəltmişlər. Bu qəbildən olan araşdırmalar Ə.Ə.Əlizadə və S.İ.Seyidova məxsusdur.

Tələbələrin yaradıcı fəaliyyətinin təşkili məsələsi əksər pedaqoq və psixoloqların əsərlərində yer almışdır. Ə.Ə.Əlizadə, S.İ.Seyidov, V.İ.Andreyev, T.İ.Şamovoy, M.İ. Maxmutov öz əsərlərində yaradıcılıq problemini geniş araşdırmışlar.

"Yaradıcılıq" anlayışı "kreativlik" anlayışı ilə sıx əlaqədədir. Lakin hər iki istilahın özünəməxsus xüsusiyyətləri vardır. Yaradıcılıq yeni məhsulun yaradılmasına gətirib çıxaran prosesdir, müəllifin istedadına, qabiliyyətinə əsaslanır. Kreativlik isə stereotip dü-

şüncə tərzini inkar edərək problemin yeni, konstruktiv və orijinal həll yolunu müəyyənləşdirmək, insanın şəxsi təcrübəsini formalaşdırmaqdan ibarətdir. O, şəxsiyyətin mənəvi potensialına, daxili resursuna əsaslanır. Praqmatik element (nəyin nə üçün və necə yaradılacağını əvvəlcədən anlamaq) kreativ prosesin əsasını təşkil edir. Yuxarıda qeyd olunanları yekunlaşdıraraq, belə nəticəyə gəlmək olar ki, yaradıcılıq ilkin və fundamental xüsusiyyətdir, kreativlik isə onun məntiqi davamıdır. Kreativlik yaradıcılığa əsaslanaraq formalaşır və onsuz fəaliyyət göstərmir. Kreativlik və yaradıcılıq bir-biri ilə sıx əlaqədədir, birinin digərindən təcrid olunmuş şəkildə fəaliyyəti mümkünsüzdür. Kreativlik fenomeninin araşdılıması uzun illərin tədqiqatlarını, onlardan irəli gələn fikir və nəticələri əhatə edir. Xarici ədəbiyyatda problemin təhlili göstərmişdir ki, kreativlik kateqoriyası birmənalı qəbul olunmamış və çoxşaxəli olduğu üçün alimlər hələ bu anlayışı tam ifadə edən vahid tərif verə bilməmişlər. Təlim prosesində, xüsusilə də pedaqoji fənlərin tədrisində, tələbələrin kreativliyinin inkişafı ilə bağlı araşdırmalar mövcud deyildir. Xarici ölkələrdə kreativlik probleminin genişmiqyaslı tədqiq olunmasına baxmayaraq, hələ də onun mahiyyəti, təbiəti, inkişaf amilləri haqqında birmənalı fikir formalaşmamış, kreativ şəxsiyyətin xüsusiyyətləri təsnif edilməmiş, onun şəxsiyyətin peşəkar inkişafındakı rolu tam şəkildə açıqlanmamışdır. Azərbaycanda isə kreativlik problemi ilə bağlı, ümumiyyətlə, heç bir tədqiqat aparılmamışdır.

Əksər tədqiqatçılar belə fikir irəli sürürlər ki, kreativliyin mövcudluğu şəxsiyyətin yüksək yaradıcı nailiyyətlərinə təminat vermir. V.N.Drujininın fikrincə, kreativlik özünün inkişafı prosesində "şəxsiyyətin dərin xüsusiyyəti" olaraq qala bilər və təlim-tərbiyə prosesində inkişaf etməz. Təhsil təcrübəsində formalaşmış təcrübə öyrənənlərdə kreativliyin inkişafına istiqamətlənməmiş, əksinə, əzbərçiliyin inkişafına yönəldilmişdir.

Müəyyən olunmuş ziddiyyətlər, kreativliklə bağlı ali təhsil müəssisələrinin müasir təcrübəsindəki çatışmazlıqlar, bu sahədə tədqiqatların aparılmaması, cəmiyyətin yüksək səviyyəli peşəkar, sərbəst düşüncəli mütəxəssislərə olan tələbatı tədqiqatın problemini müəyyənləşdirmişdir: tələbələrdə kreativliyin formalaşmasını təmin edən, inkişafına zəmin yaradan modelin işlənib hazırlanması zərurəti

meydana çıxmışdır. Ziddiyyətlərin həlli yollarının araşdırılması tədqiqat problemini müəyyənləşdirmişdir. Ali məktəblərdə tələbələrin kreativliyinin inkişafına təkan verən, onların özünüreallaşdırmasına, özünü ifadə etməsinə şərait yaradan, eyni zamanda, cəmiyyətin kreativ mütəxəssislərə olan tələbatını ödəyən təlim modelinin üzə çıxarılması məqsədəuyğun hesab edilmişdir. Bu baxımdan sözügedən problem böyük aktuallıq kəsb edərək, tədqiqatın mövzusunu müəyyənləşdirmişdir: "Bakalavriat səviyyəsində təhsil alanlarda kreativliyin inkişafı".

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini tələbələrdə kreativliyin inkişafı prosesi təşkil edir. Tədqiqatın predmeti ali təhsil müəssisələrində tələbələrdə kreativliyin inkişafının nəzəri, təşkilati, metodik və praktik əsaslarının müəyyənləşdirilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi ali təhsilin keyfiyyətinin yüksəlməsi məqsədilə tələbələrdə kreativliyin inkişafı modelinin işlənib hazırlanması.

Elmi tədqiqat işinin məqsədini əsas tutaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

-bakalavriat səviyyəsində tələbələrdə kreativliyin inkişafının məzmun və mahiyyətinin müəyyənləşdirilməsi;

-tələbələrdə kreativliyin inkişafı baxımından yerli və xarici pedaqoji-psixoloji ədəbiyyatın təhlili;

-tələbələrdə kreativliyin inkişafı probleminin proqram və metodik ədəbiyyatda qoyuluşunun təhlili;

-tələbələrdə kreativliyin inkişafı probleminin ali məktəb təcrübəsində öyrənilməsi və ümumiləşdirilməsi;

-tələbələrdə kreativliyin inkişafının yeni modelinin prinsip və meyarlarının müəyyənləşdirilməsi;

-tələbələrdə kreativliyin inkişafının imkan və yollarının müəyyənləşdirilməsi;

-tələbələrdə kreativliyin inkişaf modelinin pedaqoji eksperiment yolu ilə yoxlanması;

-tələbələrdə kreativliyin inkişafına dair tövsiyələrin verilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Müəllimlik ixtisası üzrə təhsil alan tələbələrdə kreativliyin inkişafının mahiyyəti, məzmunu, yolları, metodları və strukturu işlənmiş, müasir dövrün tələbləri və dünya təcrübəsi

nəzərə alınaraq, konseptual yanaşmalar və prinsiplər müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** elmi cəhətdən əsaslandırılmış prinsiplər, tələblər, müasir yanaşmalar əsasında bakalavriat səviyyəsində təhsil alanlarda kreativliyin inkişafı üzrə yeni modelin verilməsindədir.

**Tədqiqatın praktik əhəmiyyəti** ondan ibarətdir ki, kreativliyin inkişafı baxımından ali təhsilin keyfiyyətinin yüksəldilməsinə və təkmilləşdirilməsinə yönəlmiş nəticələrin əldə olunmasının universitetin təcrübəsinə tətbiqi tələbələrdə kreativliyin inkişaf konsepsiyasının reallaşdırılmasına imkan yaradır, təlim mühitinin keyfiyyətinin təkmilləşdirilməsi məqsədilə kreativliyin inkişafının prinsip və modelinin həyata keçirilməsi tələbələrdə kreativliyin inkişafını stimullaşdırır və maneələrin aradan qaldırılmasında böyük rol oynayır.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəalarının aprobasiyası "Xarici dillərin tədrisinin aktual problemləri" və Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Müəllim hazırlığı strateji hədəflərdən biri kimi" adlı respublika elmi konfranslarında, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası" adlı IV Beynəlxalq elmi konfransda məruzələr şəklində aparılıb. Tədqiqatın konkret nəticələri ölkəmizdə və xaricdə (Qazaxıstan, Rusiya, Macarıstan, Serbiya, İspaniya) çap olunmuş 23 elmi məqalədə öz ifadəsini tapıb.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Dillər Universitetinin Təhsil-1 fakültəsinin nəzdində Pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 4 fəsil, 12 paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin giriş hissəsi 6 səhifə (12024 işarə), I fəsil 68 səhifə (124458 işarə), II fəsil 59 səhifə (108934 işarə), III fəsil 65 səhifə (125061 işarə), IV fəsil 49 səhifə (74437 işarə), nəticə hissəsi 6 səhifə (1018 işarə), istifadə edilmiş ədəbiyyat siyahısı 24 səhifə olmaqla, dissertasiya işinin ümumi həcmi 279 səhifə, 445932 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, metodoloji əsası, tədqiqat metodları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, nəticələrin etibarlılığı, tətbiqi və aprobasiyası barədə yığcam məlumat verilir.

Dissertasiya işinin **"Tələbələrdə kreativliyin inkişafının pedaqoji, psixoloji əsasları"** adlı I fəsli üç paraqrafdan ibarətdir. Bu fəsildə kreativliyin qloballaşan dünyada əhəmiyyəti, təhsilalanlarda kreativliyin inkişafının pedaqoji, psixoloji əsasları, kreativlik universitet təhsilinin keyfiyyət göstəricisi kimi məsələlər araşdırılmışdır.

Fəslin ***"Kreativliyin qloballaşan dünyada əhəmiyyəti"*** adlanan birinci paraqrafında aşağıdakı məsələlər diqqət mərkəzində dayanmışdır: Təhsildə kreativlik termini tez-tez istifadə olunur, lakin onun özünü hansı formada, nə zaman və necə göstərməsi barədə dəqiq məlumat verilmir. Bəzən pedaqoqlar kreativliyin məzmununu anlamadan tələbələrdən kreativlik tələb edir, hətta onların cavablarını qiymətləndirirlər. Bu konsepsiyanın dəqiq izah olunmaması yanlış anlaşılmalara, istedad, incəsənət, şəxsi keyfiyyət kimi terminlərlə qarışdırılmasına gətirib çıxarır. Bu məqsədlə kreativliklə bağlı yanlış anlaşılmaya səbəb olan stereotipləri qırmaq lazımdır. Son zamanlar "yenilik" və "dəyər" ifadələri kreativlik anlayışının sinonimi kimi geniş istifadə olunur. Əslində isə onlar kreativ nəticələrdə özünü göstərir. Məsələnin aktuallığı "yenilik" və "dəyər" anlayışlarının təhsil kontekstində müzakirəsini aparmağı, dəqiq çərçivələri müəyyənləşdirməyi, hazır məhsul deyil, proses kimi nəzərdən keçirməyi tələb edir. Hər iki anlayışın dəqiq izahatının verilməsi vacibdir, çünki orijinal məhsulun dəyərsiz olması mümkündür. Terminin təhsildə geniş istifadəsi, həmçinin təlim prosesinə gətirilməsi onların təhsilalanların inkişaf və nailiyyətlərinə uyğunlaşdırılması ilə bağlı bəzi sualları cavablandırmağı labüdləşdirir. Müasir gənclər cəmiyyət üçün gərəkli, zəruri, orijinal və dəyərli ideyalara malik olmalıdırlar. Həmin anlayışlar gündəlik fəaliyyətlə, həyatla əlaqəlidir və hər kəsdə "kiçik

kreativlik" səviyyəsi özünü büruzə verir. Müəllimlər kreativliklə bağlı yanaşmalarında yaş, fənn xüsusiyyətlərini nəzərə almalıdırlar

Müasir cəmiyyətin inkişafı bazar münasibətlərinin formalaşması, ictimai həyatın bütün sahələrində rəqabətin artması, insanların intellektual, mənəvi və mədəni keyfiyyətlərinə dair tələblərin gücləndirilməsi şəraitində reallaşır. Bu baxımdan ali məktəbin gələcək inkişafı təhsilalanlarda bilik, bacarıq, peşə kompetensiyaları ilə yanaşı yaradıcı və mənəvi keyfiyyətlərinin formalaşması nəticəsində mümkündür. Cəmiyyətin müxtəlif peşə sahələrində qurub yaradan, mənəvi prinsiplərə malik şəxsiyyətə ehtiyacı var.

Hazırda təhsilin mövcud vəziyyəti ilə cəmiyyətinin müasir tələbləri arasında ziddiyyət mövcuddur. Belə ki, təhsil cəmiyyətin kreativ mütəxəssislərə olan ehtiyacını ödəmir. Problemin həlli təhsilin yeni, kreativ paradiqminin yaradılması vasitəsi ilə mümkündür.

Müasir pedaqogikada təlim, tərbiyə, inkişaf prosesinin humanistləşdirilməsi, şəxsiyyətyönümlülük, təhsilalanların istedadı, yaradıcılığı, maraq, meyil və tələbatları prioritet istiqamət kimi müəyyənləşdirilir. Cəmiyyətin yaradıcı şəxsiyyətə olan ictimai ehtiyacı və bu sahədə aparılan elmi-nəzəri və praktik tədqiqatların azlığı problemin aktuallığını qoruyub saxlayır.

Cəmiyyətin yaradıcı düşünən, qeyri-standart qərarlar qəbul edən kreativ mütəxəssislərə olan tələbatı yeni kreativ təlim konsepsiyasının hazırlanmasını labüdləşdirmiş, gələcəyin peşəkar kadrlarının yaradıcı potensialının ortaya çıxarılmasını və kreativliyinin inkişafını zərurətə çevirmişdir.

Bunları nəzərə alaraq, A.Maslou əsərlərində yeni təlim konsepsiyasının yaradılması haqqında fikirlər irəli sürmüş və bildirmişdir ki: "*Məhz kreativlik kadr hazırlığının əsas meyarlarından olmalıdır*" [51, s.352].

Əksər alimlər yaradıcılığı insan fenomeninin ən yüksək təcəssümü hesab edirlər. Lakin o çox az araşdırılan məsələlərdəndir. Tələbələrin yaradıcı fəaliyyətinin təşkili məsələsi əksər pedaqoq və psixoloqların əsərlərində yer almışdır. Ə.Ə.Əlizadə, S.İ.Seyidov, V.İ.Andreyev, T.İ.Şamovoy, M.İ.Maxmutov öz əsərlərində yaradıcılıq problemini geniş araşdırmışlar.

Təhsildə innovativlik təlimin məzmun və metodları ilə yanaşı, qiymətləndirmə prosesində də köklü dəyişikliklər tələb edir. Bu gün Avropanın əksər təhsil müəssisələri zəngin kreativ təcrübəyə malikdir. Həmin təcrübənin öyrənilməsi prosesin təşkilinə böyük töhfə verə bilər.

I fəslin ikinci paraqrafında ***təhsilalanlarda kreativliyin inkişafının pedaqoji, psixoloji əsasları*** üzrə araşdırma aparılmışdır.

Müasir dövrün əmək bazarı mürəkkəb istehsalat münasibətlərinin tənzimlənməsini və qlobal təcrübənin mövcudluğunu tələb edir. Bu səbəbdən də XXI əsrin ali məktəbləri cəmiyyətin zəruri kompetensiyalara olan tələbatını ödəməyi bacarmalıdır. Həmin vəzifənin öhdəsindən gələn təhsil müəssisələri əmək bazarında, istehsalat prosesində, informasiya texnologiyaları ilə işin təşkilində, mədəni həyatda sağlam rəqabətə davam gətirə biləcək. Gərgin rəqabət və mürəkkəb problemlər fonunda elmi ədəbiyyatda ictimai məsuliyyət, ünsiyyət və tənqidi təfəkkürün də rolu xüsusi vurğulanır. Sadalananlarla yanaşı, kreativ intellekt, innovativ potensial, peşə bacarıqları və şəxsi inkişaf böyük əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən “kreativlik” anlayışına maraq son illər durmadan artır və onun ətrafında alimlərin mübahisə və müzakirələri səngimək bilmir.

“Kreativlik” anlayışının müxtəlif sahələrdə araşdırılmasına baxmayaraq, o, əsasən psixologiya və incəsənət sahələrində tədqiq olunmuşdur. Kreativliyin cəmiyyətdə, elm, təhsil, biznesdə rolu və əhəmiyyəti danılmazdır, lakin onun mahiyyəti hələ də tam açılmamışdır [87, s.177]. Kreativlik anlayışı termin kimi ilk dəfə XVIII əsrdə polyak şairi Matey Kazimir Sarbevskiy tərəfindən işlədilmişdir [271].

Kreativliyin təbiətini araşdıran Z.Freyd sübut etmişdir ki: “*O, insan ağlında kreativ cəhdlərlə nəticələnən müəyyən “dinamik amilləri*” özündə ehtiva edən fenomendir [133, s.310].

Müasir psixo-pedaqoji ədəbiyyatda “pedaqoji kreativlik” anlayışına münasibət bir mənalı deyil. O kreativ pedaqogika və ya pedaqogikanın xüsusi istiqaməti kimi müəyyənləşdirilir. Rus psixoloqu V.N.Drujinin belə fikir yürütmüşdür ki, kreativlik və intellekt bir-birindən asılı olmayan, yəni müstəqil, həmçinin əks amillərdir. İntellektin yaranmasına təkan verən vəziyyətlər kreativliyin formalaşma-

sına ziddir [37, s.541]. Rus tədqiqatçıları kreativliyə dair müxtəlif yanaşmalar irəli sürmüşlər. O.K.Tixomirov kreativliyi yeni məhsulun yaradılması və ya yaradıcı təfəkkürün nəticəsi, P.M.Yakobson, V.A.Molyakoyeni məhsulun yaradılmasına dair yaradıcı proses adlandırmışlar [273]. Müasir dövrdə kreativlik daha çox fərdin orijinal dəyərlər yaratmaq xüsusiyyəti, qeyri-standart qərar qəbulu, məlum faktların çərçivəsindən kənara çıxmaq və s. kimi qiymətləndirilir.

Kreativliklə bağlı problemlərdən biri də onun diaqnostikasının aparılmasında müəyyən boşluqların, çatışmazlıqların mövcudluğudur. XX əsrin sonunadək tədqiqatçılar kreativliyi intellektin funksiyası kimi nəzərdən keçirir, kreativliyin səviyyəsini isə intellektin inkişaf səviyyəsi ilə əlaqələndirirdilər. Psixoloqlar müxtəlif insanlar üzərində tədqiqat aparmışlar. Bəziləri orta, bəziləri yüksək, digərləri isə aşağı intellekt göstəricisinə malik insanları eksperimentə cəlb etmişlər. Araşdırmanın nəticəsinə əsasən belə fikir formalaşmışdır ki, psixometrik xüsusiyyətlərlə kreativlik arasında əlaqə mövcuddur, lakin bu, xətti uyğunluq deyil. Alimlər belə qərara gəlmişlər ki, intellektin səviyyəsi ilə kreativlik müəyyən vaxtadək bir-birilə bağlı olur. Həddindən artıq yüksək intellekt isə kreativliyin inkişafına maneçilik törədir. Kreativlik E.Torransın da tədqiqatlarında universal yaradıcı dərketmə qabiliyyəti, müstəqil, intellektdən asılı olmayan amil kimi nəzərdən keçirilir.

Kreativlik E.Torransla yanaşı, C.Gilfordun da tədqiqatlarında geniş yer almışdır. O, kreativliyin altı xüsusiyyətini təsnif etmişdir:

- *“Problemin müəyyənləşdirilməsi və qoyuluşu bacarığı;*
- *İdeyalar generasiyası bacarığı–sürətlilik;*
- *Müxtəlif ideyalar irəli sürmək bacarığı –çeviklik;*
- *İctimai baxışlardan, mövcud fikirlərdən fərqlənən qeyri-standart ideyalar yaratmaq bacarığı – orijinallıq;*
- *Obyekt, fakt və hadisənin yeni detallar əlavə olunma yolu ilə təkmilləşdirilməsi bacarığı;*
- *Problem həlli bacarığı – təhlil və sintez”* [144, s.446].

A.Maslou kreativliyi özünü aktuallaşdıran şəxsiyyətin təbii xüsusiyyəti kimi qeyd etmişdir.

Beləliklə, “kreativlik” müasir elmdə çoxölçülü və çoxaspektli anlayış kimi izah edilir. Geniş anlamda o, müstəqil, vahid, tam sis-

tem kimi özünü büruzə verir, insan həyatının bütün istiqamətlərində fəaliyyət göstərir. Buraya kreativ proses, kreativ məhsul aiddir. Kreativ məhsul yaradıcı prosesin nəticəsidir desək, yanılmarıq. Lokal mənada kreativlik yaradıcılığa dair insanın qabiliyyətidir və o hər kəsdə müəyyən səviyyədə mövcuddur. Kreativlik fəaliyyətdə özünü göstərir, formalaşır və inkişaf edir. Bu prosesdə kreativ mühit xüsusi əhəmiyyət kəsb edir. Beləliklə, kreativlik və ümumi intellektin düşüncə prosesinə təsir göstərmələrinə baxmayaraq, hər biri həmin prosesin müxtəlif mərhələlərində fərqli rol oynayır. İnsanın fərdiliyi, unikallığı kreativlik problemi ilə sıx əlaqəlidir. Kreativlik şəxsiyyətin xarakterinə və fəaliyyətinin nəticələrinə təsir göstərir, onun sosial-psixoloji xüsusiyyətlərini müəyyənləşdirir. Kreativlik həyatın tez-tez dəyişən şəraitinə uyğunlaşmağa imkan yaradır, yeni davranış norma və qaydaları müəyyənləşdirir, şəxsiyyətə potensialını reallaşdırmaq imkanı verir, onun sosiallaşmasını mümkünləşdirir.

I fəslin üçüncü paraqrafı ***"kreativlik universitet təhsilinin keyfiyyət göstəricisi kimi"*** adlanır.

Cəmiyyətdə baş verən dəyişikliklərin tempi sürətləndiyindən beş ildən sonra zəruri olacaq bilik və kompetensiyalar haqqında fikir söyləmək mümkün deyil. Müasir dövrdə bütün sahələrdə dinamik və innovativ proseslər mürəkkəb problemlərin həllində məsuliyyəti öz öhdəsinə götürməyi, kreativ qabiliyyət, kompetensiya və bilikləri əlaqələndirərək istifadə etməyi bacaran mütəxəssis hazırlığını labüdləşdirir. Bu halda təhsilin qarşısında duran əsas vəzifə tələbələri qeyri-standart, orijinal problem həllinə, tənqidi və kreativ təfəkkür bacarıqlarından faydalanmağa, gələcəkdə qarşılaşa biləcəkləri çətinliklərin öhdəsindən gəlməyə hazırlamaqdır.

Dünyada gedən proseslər Azərbaycandan da yan keçməmişdir. Respublikamız müstəqillik qazandıqdan sonra təhsil sahəsində köklü dəyişikliklərin aparılması məqsədilə silsilə islahatlar həyata keçirildi. Bu isə müvafiq sənədlərin, proqramların hazırlanmasını labüdləşdirdi. Ulu öndər Heydər Əliyev tərəfindən 1999-cu ilin 15 iyun tarixində imzalanan 168 nömrəli sərəncamla təsdiq edilən "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" həmin istiqamətdə atılan ilk addımlardandır. Proqram Azərbaycan Respublikası

ilə Beynəlxalq İnkişaf Assosasiyası (Dünya Bankı) arasında bağlanan və Kredit Sazişi çərçivəsində həyata keçirilən Təhsil Sektorunun İnkişafı Layihəsinə uyğun olaraq, təhsil sektorunun bütün sahələrinin səriştəli, yüksək peşəkarlığa malik pedaqoji kadrlarla təmin edilməsini və ümumi təhsilin keyfiyyətinin artırılmasını nəzərdə tuturdu. Kreditin əsas məqsədlərindən biri Azərbaycanın təhsil sistemində beynəlxalq təhsil standartlarına uyğun zəruri bilik və bacarıqların formalaşdırılması, əmək bazarında rəqabətə dözümlü kadr potensialının hazırlanması, təhsil müəssisələrində innovasiyaların tətbiqi və innovasiya təşəbbüslərinin dəstəklənməsidir. Gözlənilən hədəflərə çatmaq üçün islahat proqramı çərçivəsində mühüm sənədlər imzalandı. Azərbaycan Respublikasının "Təhsil Haqqında" Qanunu, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", bu sənədlər, ilk növbədə, pedaqoji kadr hazırlığı prosesinin qarşısına xüsusi tələblər qoydu, məzmunu müasir dövrə uyğun formaya saldı. Cəmiyyətin artan dinamik təlbatlarını ödəyə biləcək təlim üsulları və vasitələrinin müəyyənləşdirilməsi, yerli, beynəlxalq təcrübə ilə tanışlıq, təhsil qanunvericiliyi haqqında ətraflı məlumatın əldə edilməsi bugünkü pedaqoji kadr hazırlığının qarşısında dayanan başlıca tələblərdir. Təhsil ehtiyaclarının təmin olunması üçün həmin istiqamətdə aparılan işlərə daha sistemli və diqqətlə yanaşılmalı, ən optimal fəaliyyət planı seçilməlidir. "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası" islahatın humanitar xarakterli olmasını, onun insanların yaradıcı və keyfiyyətli fəaliyyətinin hərtərəfli açılmasına yönəldilməsini qarşıya hədəf qoymuşdur. Qəbul olunan sənədlər və onların reallaşdırılması istiqamətində pedaqoji kadr hazırlığı ilə məşğul olan müəssisələr əmək bazarında rəqabətədözümlü, problem həlli, çevik, qeyri-standart və orijinal qərar qəbulu bacarığına malik kadr hazırlığına xüsusi diqqət yetirməlidirlər. Fəaliyyət bir neçə istiqamətdə reallaşdırılmalı, müəllimlərin sahə üzrə nəzəri, praktik, İKT və tədqiqatın aparılmasına dair bacarıqlarının təkmilləşdirilməsi, daha da genişləndirilməsi istiqamətində təlim kursları təşkil olunmalı, beynəlxalq standartlara uyğun ixtisasartırma sistemi yaradılmalıdır. Lakin ali məktəblərdə

mövcud vəziyyətin təhlili göstərir ki, müəllimlər hələ də ənənəvi təlim üsullarından istifadəyə üstünlük verir, multi-media vasitələrindən faydalanmağa passiv yanaşırlar. Təlimin ənənəvi sistemin qalıqları əsasında təşkili tələbələrdə kreativliyin inkişafını, yaradıcı fəaliyyətin stimullaşdırılmasını məhdudlaşdırır, dərs isə reproduktiv xarakter daşıyır. Beləliklə, təhsilalanlar başqalarının fikir və fəaliyyətlərinin təqlidçisinə çevrilir, yeni və orijinal düşüncə sərgiləməyi bacarmırlar. Prosesin yekununda tələbələrdə tənqidi və kreativ təfəkkürün inkişafı izlənilmir, kreativliyə əsaslanan rəqabət baş vermir, müstəqillik dəstəklənmir, nailiyyət mükafatlandırılmır. Sadalananlarla yanaşı, dərslərin müasir təhsil fəlsəfəsinə uyğun olmayan, günün tələblərinə cavab verməyən proqramlar əsasında həyata keçirilməsi kreativliyi şəxsi və ictimai səviyyədə daha da aktuallaşdırır. İnformasiya bolluğu, həyat tərzinin çətinləşməsi insanları zamanla uyğunlaşmaq, mövqelərini müəyyənləşdirmək üçün yeni yollar axtarmaq məcburiyyətində qoyur. Bu isə cəmiyyətin hər bir üzvünü kreativ potensialını üzə çıxarmağa, ondan istifadə imkanlarını müəyyənləşdirməyə vadar edir. İnsanlar müəssisələrdə gedən proseslərdən kənarda qala bilmir, fəaliyyətlərini yeniləməyə məcbur olurlar. Deməli, təhsil sistemi proqnozlaşdırılması mürəkkəb hesab edilən gələcək üçün mütəxəssis hazırlığına istiqamətlənməlidir. Ümumiyyətlə, insanların rifahının yaxşılaşdırılmasını təmin edən kreativ məhsulların yaradılması XXI əsrin tələbi olduğu kimi kreativliyə malik insanlar da iqtisadiyyatın tələbatını ödəyən əsas resurslardır. Tədqiqatçılar yekdil şəkildə dönə-dönə vurğulayırlar ki, kreativlik bütün insanlara xasdır və təhsil sistemi iqtisadi, sosial inkişafı həm milli, həm də qlobal səviyyədə kreativ insan resursları vasitəsilə təmin etməlidir. Araşdırmalar zamanı bəlli olmuşdur ki, dünya təhsil sisteminin bir hissəsinə çevrilmiş Azərbaycanla yanaşı, əksər inkişaf etmiş ölkələrdə (İEÖ) də təhsilalanların kreativliyinin formalaşdırılması ilə bağlı vəziyyət qənaətbəxş deyil. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasında "müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək" təhsil sisteminin başlıca vəzifəsi kimi müəyyənləşdirilmişdir. Təhsil sisteminin strateji hədəfi isə "ali təhsil müəssisələrinin təhsil–tədqiqat–innovasiya mərkəzlərinə çevrilməsinə dəstək verən və rəqabət qabiliyyətli mütəxəssis hazırlığını təmin

edən ali təhsil standartlarının tətbiqi, cəmiyyətin və iqtisadiyyatın tələbatlarına uyğun olaraq hər bir ixtisas üzrə müasir standartların hazırlanması"dır. Hədəflərin reallaşdırılması məktəbəqədər təhsil müəssisələrindən başlayaraq təhsilin bütün pillələrində öyrənənlərdə istedad və bacarıqların üzə çıxarılmasına yönəlmiş, xüsusi təlim proqramları, dərsliklər vasitəsilə onların inkişafı məsələsi ön plana çəkilmişdir. Aparılan tədqiqatlar bu sahədə yenə də boşluqların mövcudluğunu sübuta yetirir. Çatışmazlıqların aradan qaldırılması üçün əsaslı işlərin görülməsi mütləqdir.

Avropa Universitetləri Assosiasiyasının (AUA) 2007-ci ildə apardığı tədqiqat kreativliyin əsas xüsusiyyətlərinin öyrətmə prosesində diqqətdə saxlanılmasının vacibliyini ortaya çıxarmışdır. Araşdırmaların nəticəsi kimi kreativliyin formalaşdırılması və inkişafı məqsədilə alqoritm qurulmuşdur:

– Orijinallıq – qeyri-adi və maraqlı ideyalar irəli sürmək bacarığı;

– Müvafiqlik – məqsədəuyğun və müvafiq fəaliyyətin icra edilməsi;

– Gələcəyə baxış – gələcək perspektivlərin müəyyənləşdirilməsi, baş verə biləcək hadisələrin əvvəlcədən təxmin edilməsi və adekvat reaksiyanın göstərilməsi;

– Problemi həll etmək bacarığı – problemin aradan qaldırılması üçün həll yollarının müəyyənləşdirilməsi (burada çərçivədən kənar düşüncə tərzi tələb olunur), müxtəlif yanaşmaların nəzərdən keçirilməsi, təcrübədən uğursuzluqla çıxan variantların ixtisara salınması, risklərə hazırlıq.

Araşdırmalara əsaslanaraq belə qənaətə gəlmək mümkündür ki, ali təhsil müəssisələrinin məzunlarının kreativlik səviyyələri ilə iş dünyası arasında gözəçarpan boşluq mövcuddur. Çatışmazlığın aradan qaldırılması üçün müvafiq təlim mühiti formalaşdırılmalı, tələbələrdə kreativliyi inkişaf etdirən, onları həvəsləndirən, real həyata, əmək fəaliyyətinə hazırlayan tədris metodologiyası hazırlanmalı, tətbiq olunmalı, öyrənənlərin kreativliyini yüksəldən vasitə və texnikalar işlənilməlidir. Deməli, müasir təhsilin məqsədi tələbələrə potensiallarını üzə çıxarmağa, onların hərtərəfli inkişafına zəmin yaratmaq, təlim fəaliyyətində müsbət dəyişikliklərə nail olmaqdır. Məhz

bu səbəbdən öyrənənlərdə kreativliyin inkişaf etdirilməsi ali təhsil təcrübəsinin tərkib hissəsinə çevrilməlidir.

Dissertasiya işinin **"Bakalavriat səviyyəsində təhsilalanlarda kreativliyin inkişaf konsepsiyası"** adlı ikinci fəsli üç paraqrafdan ibarətdir. Fəslin birinci paraqrafı ***"İnnovativ universitet mühiti tələbələrdə kreativliyin inkişafının əsas amili kimi"*** adlanır. Paraqrafda diqqət yetirilən məsələlər bunlardır: Müasir dövrdə iqtisadiyyatda baş verən dinamik dəyişikliklər kreativlikdən istifadənin zəruriliyini ön plana çəkmişdir. Əmək bazarının sürətli inkişafı müəssisə və təşkilatları yeni texnologiyalardan istifadəyə, innovasiyaların tətbiqinə, kreativliyin formalaşmasına zəmin yaradır. Sözsüz ki, prosesin belə cərəyan etməsi, təhsil sistemində islahatların həyata keçirilməsi, köklü dəyişikliklərin aparılması, yeni yanaşmaların yayılması təhsil müəssisələri və onların professor-müəllim heyətinin də qarşısında mühüm vəzifələr qoymuşdur. Ali məktəbin əsas vəzifəsi cəmiyyəti çevik qərar qəbuluna malik yüksək səviyyəli peşəkar mütəxəssislərlə təmin etməkdir. Məhz bu səbəbdən kreativ potensialın yüksəldilməsi cəmiyyətin ən dinamik təbəqəsi olan tələbələrdə, ümumilikdə, ali məktəblərdə mümkündür.

Adətən, "kreativlik" termini "innovasiya" anlayışı ilə paralel şəkildə istifadə edilir. Bir-birini tamamlayan bu iki istilah bütün fənlərin tədrisində, əsasən də pedaqoji kadr hazırlığında və pedaqoji fənlərin tədrisində xüsusi əhəmiyyət kəsb edir. İnnovasiya nədir və kreativliklə onun hansı əlaqəsi var? Kreativlik innovasiyalara doğru atılan ilk addımdır. O, yeni ideya, prosedur, proseslərin yayılması və həyata keçirilməsidir. İnnovasiyaların daşıyıcı isə insandır.

İnnovasiya geniş mənada müasir düşüncə, fakt, hadisələrə yeni, fərqli, orijinal yanaşma və sonda hər kəs tərəfindən dəyərləndirilən məhsul deməkdir. İnnovasiyaların ərsəyə gəlməsi hər zaman çalışqanlıq, dəyanət, dözümlülük tələb edir, çünki, yaxşı ideyaların həyata keçirilməsi, reallaşdırılması ağır və davamlı prosesdir. Kreativlik və innovasiya haqqında təsəvvürlər zaman keçdikcə dəyişir, inkişaf edir, genişlənir.

Hazırda kreativlik və innovasiyalar arasında əlaqələrin araşdırılması Avropada diqqət mərkəzində olan məsələlərdəndir. Avropa şurası iqtisadi kapitalın insan kapitalına çevrilməsi, bilik cəmiyyə-

tinin inkişafı istiqamətində kreativlik və innovasiyalar üçün imkanların gücləndirilməsi, münbit şəraitin yaradılması, iqtisadi və sosial cəhətdən rəqabətədözümlüyün təmin olunması məsələlərini ön plana çəkərək konkret fəaliyyət planı hazırlamışdır. Prosesə 2000-ci ilin mart ayında Portuqaliyanın Lissabon şəhərində o zaman Avropa İttifaqına üzv olan on beş ölkə başçısı tərəfindən Lissabon strategiyasının qəbulu ilə start verilmişdir. Sənəddə növbəti onillik üçün "dünyada rəqabətədözümlü və bilikəsaslı dinamik iqtisadiyyatın qurulması və inkişafı, iş yerlərinin artırılması, sıx sosial birliyi" strateji hədəf kimi müəyyənləşdirilmişdir. Avropa Şurasının yeni strateji məqsədi olan Lissabon strategiyası iqtisadi yenidənqurma, sosial sahənin inkişafı, ətraf mühitin mühafizəsi istiqamətində qlobal rəqabətədözümlüyü nəzərdə tutmuşdur. Məqsədlərə çatmaq üçün dövlət başçılarına Avropa iqtisadiyyatının transformasiyası, yenidən qurulması, sosial rifahın və təhsil sisteminin modernləşdirilməsi istiqamətində fəaliyyətin təşkili təklif edilmişdir. Lissabon strategiyasında bilik və innovasiyaların müasir dövrdə Avropa üçün əhəmiyyəti xüsusi vurğulanmışdır. 2006-cı ildə Avropa Şurasının yaz sessiyasında həmin sənədin müddəalarının məqsədlərinə yenidən baxış zamanı geniş innovativ yanaşmaların hazırlanmasının zəruriliyi təsdiqlənmişdir. Qeyd edilmişdir ki, təhsil və təlim, innovasiyalara açıqlıq Avropanın əsas inkişaf prioriteti olmalıdır.

1999-cu ildə Bolonya sazişinin qəbulu, 2003-cü ildə əksər Avropa ölkələrinin həmin sazişə qoşulması ali təhsil müəssisələrində islahatların həyata keçirilməsini labüdləşdirmişdir. Təhsil ekspertləri Bolonya prosesini, islahatları müsbət dəyərləndirirlər. Prosesin proqressiv və səmərəli xüsusiyyəti iştirakçı ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsidir. Birgə fəaliyyət ali məktəblərin professor-müəllim heyəti, təhsil ekspertləri, tələbə təşkilatları, ali təhsilin keyfiyyətinin qiymətləndirilməsi üzrə agentlikləri və b. əhatə edir. Lissabon strategiyasında qarşıya qoyulan məqsədlərə çatmaq tam mümkün olmadığı üçün Avropa İttifaqının inkişafına dair 2020-ciilədək fəaliyyət planı işlənib hazırlanmışdır. Həmin sənədə əsasən Avropa Şurası 2020-ci ilədək İnnovasiya İttifaqı adlanmaq hüququ əldə etməlidir. Deməli, Avropa Şurası innovativ siyasət yürütməli və bunu bütün sahələrin inkişafında nəzərə almalıdır. Avropa Şurasının inno-

vativ siyasəti Lissabon strategiyasının tələblərinə müvafiq olmaqla yanaşı, məzmunlu, dinamik inkişafı da özündə ehtiva etməlidir.

Ölkəmizin ali təhsil müəssisələrinin məzunlarına nəzər salsaq, təəssüf hissi ilə qeyd edə bilərik ki, onlar istər Azərbaycanda, istərsə də xaricdə əmək bazarının tələblərinə tam şəkildə uyğun gəlmirlər. Demək olmaz ki, bu gün ali məktəb məzunlarının heç birində kreativlik yoxdur. Əlbəttə, gənclərin müəyyən qismində kreativlik özünü göstərir. Lakin bu daha çox təsadüfi xarakter daşıyır. Çünki kreativlik ənənəvi təhsil paradiqmində qayda deyil, qaydadan istisnadır. Təbii ki, burada sual yaranır: "Niyə?" Əsas səbəb pedaqogikada səmərəli təlimin təşkili məqsədilə kreativliyin başlıca meyar kimi nəzərə alınmamasıdır. Bütün ixtisaslar üzrə mütəxəssis hazırlığında tələbələrə yeniliyə həvəslə yanaşmaq, improvizə etmək, kreativ olmağı öyrətmək lazımdır. Təhsildə kreativliyin təmin edilməsi üçün insanda quruculuq, yaradıcılıq hissinin, təşəbbüsünün oyadılması, yaradıcı potensialın üzə çıxarılması, özünəinam, özünəgüvən hissinin tərbiyəsi, qeyri-standart ideyaların generasiyası, insani, humanist dəyərlərin, yaradıcılığın formalaşdırılması mütləqdir. Sadalanan bacarıqların özülünün qoyulması universitetlərdə tədris-təlim sisteminin təkmilləşməsini, bəzən isə yenidən qurulmasını, fərqli metodikanın, resursların, yanaşmaların və pedaqoji texnologiyaların tətbiqini nəzərdə tutur. Bu tədbirlərin görülməsi elmi-praktik cəhətdən keyfiyyətli nəticələrin əldə olunmasını, yeni ideyaların generasiyasını mümkünləşdirəcək və təhsilalanlarda kreativliyin inkişafına xüsusi töhfə verəcəkdir. Kreativlik təlim prosesinin yaradıcılıq vasitəsilə təşkilidir. Kreativ təhsil hər kəsə yaradıcılığın müasir metodologiyasını mənimsəmək imkanı verir, yaradıcı potensialı üzə çıxarmaqla yanaşı, gələcəkdə onu daha da inkişaf etdirmək, insanda özünüinkişafa, özünüqiymətləndirməyə meyil formalaşdırmaq tələbatı yaradır.

Kreativlik insan kapitalının strukturunun tərkib hissəsidir və o ali məktəbdə təhsil müddəti ərzində inkişaf olunmalıdır. İnnovasiya həyata keçirilən, reallaşdırılan kreativlikdir, ayrı-ayrı şəxslərdə deyil hər kəsin təbiətində yer aldığı, hər kəsə məxsus olduğu üçün universitetlərdə əsaslı biliklərin formalaşdırılması ilə yanaşı onun inkişafını təmin edən proqramların işlənilib hazırlanması labüddür. Qeyd edilmiş incə nüansların təlim prosesində nəzərə alınması tələbələrdə

kreativliyin formalaşmasına və gələcəkdə əmək bazarında rəqabətə davamlı kadr kimi fəaliyyət göstərməsinə zəmin yaradacaq.

Yuxarıda sadalanan nümunələrin təhlili göstərir ki, məsələ dünyanın diqqət mərkəzindədir, inkişaf etmiş ölkələr (İEÖ) problemin müasir dövr üçün aktuallığını anlayır, həlli istiqamətində konkret addımlar atır. Hazırlanan fəaliyyət planları arasında həm oxşar, həm də fərqli cəhətlər mövcuddur. Müxtəlif ölkələrdə kreativliyin inkişafı ilə bağlı atılan addımlar, A.Maslounun sözü ilə desək, "bizim üçün vacib olan yeni, prosessual, kreativ, improvizasiya edən, özünə inanan, cəsur və müstəqil insanın yaradılmasına istiqamətlənmişdir".

Deməli, öyrənənlərin yaradıcı potensialının inkişafına zəmin yaradan, kadr hazırlığının səmərəsini yüksəldən kreativyönümlü təlim konsepsiyasının işlənilməsi labüddür. Konsepsiya təhsilin qarşısına qoyulan müasir tələblərə cavab verməli, dünya miqyasında baş verən dəyişiklikləri əks etdirməlidir. Çünki mövcud vəziyyətdə dəyişiklikləri qabaqcadan görən, onlara hazır olan, improvizasiyalar etməyi bacaran, yaradıcı qərarlar verən mütəxəssis hazırlığına böyük ehtiyac var.

Dissertasiyanın II fəslinin ikinci paraqrafı ***"Müəllimin kreativliyi təhsilalanlarda kreativliyin inkişafının əsas şərti kimi"*** adlanır. Bu paraqrafda aşağıdakı məsələlər araşdırılır: Müasir cəmiyyətdə təhsildə prioritet məsələlərdən biri tələbələrə kreativ düşünməyi, sərbəst fikir irəli sürməyi və mühakimə yürütməyi öyrətməkdir. İnsanın kreativliyi hansı amillərdən asılıdır? Kreativ insan yüksək iş qabiliyyəti, əməksevərliliyi, əqli fəaliyyəti, səbirli və təmkinli olmağı, emosiyalarını idarə etməsi, yaradıcı prosesə böyük enerjiylə qoşulması, dözümlülüyü ilə seçilir. Kreativliyin bəzi insanlarda daha qabarıq formada, bəzilərində isə nisbətən məhdud çərçivədə özünü göstərməsinin səbəbi nədir?

Müəllimin kreativ təfəkkürünün inkişafının daxili şəraitinə onun yeni təcrübəyə açıqlığı, hazırlığı, kreativ başlanğıcın daxili qiymətləndirilməsi aiddir. Daxili şəraitin yaranması üçün xarici şərait olmalıdır. Burada təhlükəsiz mühit və psixoloji azadlıq, müəllimin şəxsi inkişafı, peşəkar özünüreallaşdırma, ixtisasartırma, motivasiya və stimullaşdırma xüsusi rol oynayır. Sadalanan məsələlər təhsil

müəssisələri və ümumilikdə, dövlət tərəfindən, qəbul olunmuş hüquqi-normativ sənədlərlə tənzimlənməlidir. Azərbaycanda reallaşdırılan təhsil islahatı üzrə dövlət proqramları təhsilin bütün pillələri üzrə pedaqoji kadrların təkmilləşdirilməsini, müntəzəm olaraq ixtisasartırma kurslarının təşkilini həyata keçirir. Hazırda ali məktəblər təhsilverənlərin keyfiyyət göstəricilərinin artırılmasına xüsusi maraq göstərir. Bu məqsədlə müəllimlərin həm beynəlxalq, həm də yerli təlim və seminarlarda iştirakı istiqamətində müəyyən addımlar atılır. Hazırda müxtəlif təşkilatlar təmsil etdikləri qurumun maddi rifahı naminə təlimlər keçir, müəllimlər isə sertifikatlarının sayını artırmaq məqsədilə həmin kurslara üz tuturlar. Bəzən belə təlimlər pedaqoqların vaxtının və maddiyyatının səmərəsiz itkisi ilə nəticələnir, çünki nə təlimçinin peşəkarlıq səviyyəsi, nə də təqdim olunan materiallar keyfiyyət baxımından heç bir əhəmiyyət daşımır. Həmçinin lazımsız hesabatların hazırlanması, müxtəlif formaların doldurulması da müəllimlərin vaxt itirməsi ilə nəticələnir. Halbuki maddi və mənəvi potensialın daha səmərəli şəkildə istifadəsi pedaqoqun şəxsi inkişafına təkan verib kreativ potensialını gücləndirə bilər. Bunlar da tələbələrin öyrənmə fəaliyyətinə yönləndirildikdə yüksək səmərəlilik qazanmaq labüdləşir.

Hazırda təhsil müəssisələrinin pedaqoji heyətini – professor-müəllim kollektivini düşündürən əsas məsələ öyrənənlərin mürəkkəb, tez-tez dəyişən, dinamik xarakterli real həyata, gələcək peşə fəaliyyətinə hazırlanması, onların kreativ potensialının inkişaf etdirilməsi problemidir.

Təhsilalanlarda kreativliyin inkişaf etdirilməsi beş əsas aspektlə sıx əlaqədardır:

1. Fənnin tədrisi prosesində təhsilalanların ruhlandırılması, stimullaşdırılması

Fəndaxili kreativlik öyrənənlərdə motivasiya yaradıcı amillərdən biridir. Əksər insanlar hesab edirlər ki, ali məktəbdə kreativlik fəndaxili problemlərin həllində özünü göstərir. Müəllim tədris etdiyi fənn çərçivəsində kreativliyin nə olduğunu, necə və hansı vəziyyətlərdə yarandığını müəyyənləşdirməlidir.

2. Kreativliyin inkişafına dair pedaqoji yanaşmaların öyrənənlərə ötürülməsi

Pedaqoq kreativliklə bağlı geniş və əhatəli məlumatlar verməklə, nümunələr göstərməklə təhsilalanların bilik dairəsini, praktik bacarıqlarının səviyyəsini yüksəltməli, həmçinin yaradıcı addımlarını dəstəkləməli və onları həvəsləndirməlidir. Müəllimlər prosesin təşkilini müxtəlif yollar, yanaşmalar vasitəsilə həyata keçirə bilər. Onların təlim zamanı istifadə etdiyi yanaşmaları üç əsas kateqoriyaya ayırmaq mümkündür:

- Bilik ötürücüsü - "müdriklik göstərən";
- Fasilitator –"kənardan rəhbərlik edən";
- Meddler - "müdaxilə edən, qarışan, təlim prosesində öyrənənlərlə birgə fəaliyyət göstərən".

Bunların hər birindən təhsilalanlara kömək etmək, həmçinin formalaşdırmaq məqsədilə yararlanmaq lazımdır.

3. Kreativliyin inkişafını təmin edən kurikulumun (təlim proqramı) və fərdi təlim mühitinin əhəmiyyəti.

Tələbələri minimum riskə malik, təhlükəsiz, rahat ali təhsil mühitindən fərqlənən real həyata – naməlum, tez-tez dəyişən vəziyyətlərə, ziddiyyətli problemlərə hazırlamaq mütləqdir. Pedaqoq bir neçə düzgün varianta maliktapşırıqlar işləməli, səhv cavab üçün cəza tədbirləri tətbiq olunmayan təlim mühiti planlaşdırmalıdır. Adətən, müəllim tədris materialını, təlim nəticələrini və onların əldə edilməsi prosesini öncədən müəyyənləşdirirdi. Lakin təhsilin müasir paradiqmi dərsin yeni yanaşmalar əsasında təşkilini labüdləşdirir. Müasir nəzəriyyələrə görə tələbələr ali təhsilin tərkib hissəsi kimi öz təlim mühitlərini müəyyənləşdirməyə həvəsləndirilməlidirlər.

4. Təhsilalanlar tərəfindən kreativliyin qavranılması

Kreativlik gündəlik həyatda, ali təhsil müəssisəsindən kənarda istənilən problemli situasiya ilə üzləşən zaman özünü daha tezbiruzə verir. İnsanlar qarşılaşdıqları çətin vəziyyətlərdə optimal çıxış yolu düşünürlər və beləliklə də kreativ fəaliyyət meydana gəlir. Müəllimlər bu incə nüansı nəzərə alaraq öyrənənləri real həyata hazırlamağı prioritet kimi qəbul etməlidirlər.

5. Təhsilalanlarda kreativlik prosesinin təşkili

Kreativlik təkcə yeni ideyaların generasiyası deyil, həmçinin ideyaların sintezi üçün müxtəlif mənbələrdən istifadə qabiliyyəti, mövcud ideyaların orijinal yollarla yeni formaya salınmasıdır. Bu

məqsədlə tələbələrə problemlə bağlı müxtəlif məlumat mənbələrindən istifadə və onlardan ən səmərəlisini seçmək təklif oluna bilər. Habelə onlar müxtəlif mənbələrdən öyrəndikləri yeni üsullar vasitəsilə məlumat mübadiləsinin innovativ modelini də yaratmaq potensialını üzə çıxarmaq üçün stimullaşdırılmalıdır.

Kreativlik müxtəlif insanların fəaliyyətinə əsaslanır, ideyaların birləşməsinə, yeni baxışların meydana gəlməsinə və ən yaxşısının seçilməsinə şərait yaradır. Tələbələrə kreativ insanların fəaliyyətini, onların ideyaların necə sintez etdiyini öyrənməyi tapşırmaq olar.

II fəslin üçüncü paraqrafı ***“Kreativliyin inkişafında tənqidi təfəkkürün rolu”*** adlanır. Bu paraqrafda aşağıdakı məsələlərin üzərində dayanılır: Müasir dövrdə təhsilin əsas vəzifəsi təhsilalanların təfəkkürünün, düşüncə bacarıqlarının inkişafıdır. Təfəkkürün inkişafının əhəmiyyəti gündəlik həyatda, əmək fəaliyyətində, təhsildə, cəmiyyətdə insanlar arasındakı əlaqələrdə özünü göstərir. O, insanın həyat tərzinin səviyyəsi ilə birbaşa əlaqəli olduğundan təlim prosesində nəzərə alınması mütləqdir. İdeal həyat tərzi müstəqillik, uğurlu ünsiyyət, innovasiya, inam və əmin-amanlıqla səciyyələnir. Qeyd olunan xüsusiyyətlər bir-birinin inkişafına güclü təkan verir. “Kreativ təfəkkür” və “tənqidi təfəkkür” anlayışlarının araşdırılması və istifadə dairəsinin genişləndirilməsi, real həyat problemlərinin həlli, fəaliyyətin təkmilləşdirilməsi, ictimai kontekstdə məlumat və arqumentlərin dəyərləndirilməsi, vacib qərarların qəbulu kimi məsələlər bu məqsədə xidmət edir. Pedaqoqlar tələbələrin kreativ olmasını: köhnə nümunə və biliklərin təkrarlanması deyil, yeni, naməlum vəziyyətlərə düzgün reaksiyanın verilməsini, problemlərin yeni və daha səmərəli həllinin təklifini, orijinal fəaliyyətin nümayişini və s. arzu edirlər. Təlim prosesində tənqidi və kreativ təfəkkürün formalaşdırılması, adətən, bir-birindən ayrı nəzərdən keçirilir, hər ikisinin fəaliyyəti müstəqil təşkil olunur. İnsan, adətən, vaxtını, istedad və maddi vəsaitlərini əhəmiyyətli, dəyərli hesab etdiyi məsələlərə sərf edir. Bu, təfəkkür bacarıqlarına da şamil edilir. Təfəkkürün, düşüncə bacarıqlarının inkişafına lazımi dəyər verilmədikcə, təlimdə onun əhəmiyyəti və inkişafı məsələləri diqqətdən kənarda qalacaqdır. Bu səbəbdən hər iki təfəkkür növünün təlimdə əlaqələrinə dair birmənalı mövqe bildirilməli və təlim prosesində onların inkişafı istiqamətləri

müəyyənləşdirilməlidir. Tənqidi təfəkkür, adətən, analiz kimi dəyərləndirilir, müəyyən struktur və ya kontekst çərçivəsində mühakimə yürütmək vasitəsi olaraq qəbul edilir. Kreativ təfəkkür isə təxəyyül, konstruktivizm, generativliyin xüsusiyyətlərini daşıyır. O, strukturun çərçivəsindən çıxmaq, hüdüdları aşmaq imkanı yaradır. Alimlərin hər iki təfəkkür növü arasındakı əlaqələrə dair fikirləri fərqlənir. Bəzi tədqiqatçılar bildirmişlər ki, onlar ayrı-ayrı fəaliyyət göstərərək biri digərini tamamlayır. Məsələn, E.Qlazerin təbirincə desək: "*Kreativlik tənqidi təfəkkürü zənginləşdirir, lakin onun mühüm komponenti kimi çıxış etmir*" [142]. De Bono isə əksinə, vurğulamışdır ki, hər iki təfəkkür növü arasında ziddiyyət mövcuddur. Belə ki, müəyyən çərçivənin hüdudlarından çıxmaq strukturu səciyyələndirən tənqidi qiymətləndirmə üçün məntiq və standartlardan imtinanı tələb edir. Lakin hər iki qrup bir fikirdə həmrəydir: tənqidi və kreativ təfəkkür əsaslı şəkildə fərqlənir və bu səbəbdən fərqli pedaqoji yanaşmaların hazırlanmasını labüdləşdirir.

Tənqidi təfəkkürün inkişafı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi alimlərin fikrincə, tənqidi təfəkkürün inkişafına dair bacarıqlar tələbələrin müstəqil fəaliyyəti prosesində formalaşdırılmalı, tədris olunan fənlər, təlim materialları vasitəsilə inkişaf etdirilməlidir. Burada divergent düşüncə, çevikliyi stimullaşdıran texnikalar yaddan çıxarılmamalı, əksinə, diqqət mərkəzində saxlanılmalıdır. Digərləri isə bildirir ki, tənqidi təfəkkürün bir sıra amilləri yaradıcılığa, kreativliyin inkişafına mənfi təsir göstərir. Lateral düşüncə tərzinin tədqiqatı ilə tanınan E.De Bono belə bir fikir irəli sürmüşdür: "*İstənilən sahədə zəngin təcrübə kreativliyi məhdudlaşdıra bilər, çünki sahə haqqında ətraflı biliklərə malik olmaq yeni ideyaların yaranmasına maneçilik törədir, bəzən isə qarşısını alır*".

Əlbəttə, tənqidi və kreativ təfəkkür arasında əsaslı dixotomiya (müqayisə, tutuşdurma) mövcuddur. Lakin buna baxmayaraq, biri digərinin tərkibinə inteqrasiya edərək onun yaranmasına öz töhfəsini verir. Kreativ nəticələrin generasiyasında tənqidi (analitik), mühakimə aspektləri mövcud olduğu kimi, tənqidi təfəkkürün inkişafında da təxəyyül və kəşfetmə elementləri vardır. Buna görə də təfəkkür növlərini bir-birindən ayırmaq mürəkkəb məsələdir.

Tənqidi təfəkkür insanı müəyyən çərçivə ilə məhdudlaşdırır. O, qapalı strukturda qurulduğundan, hüdudları aşmaq vasitələri ilə təmin edilməmişdir, hətta qiymətləndirilməsi də çərçivə daxildə aparılır. Tənqidi təfəkkür əsaslandırılmış mühakimə, qərar qəbulu ilə məşğuldur, əsasən analitik, qiymətləndirici, seçici qaydalara bağlılığı ilə fərqlənir. Çərçivə daxilində verilən lazımi məlumat və müvafiq əsaslandırma texnikaları mühakimə və alqoritm xarakterlidir.

Kreativ təfəkkür isə əksinə, çərçivənin hüdudlarını aşır və kəşfedici, təxəyyüllü, yeni ideyaların generasiyasını, köhnə çərçivənin qırılmasını nəzərdə tutur, tənqidi təfəkkürə zidd göstəricilərə malikdir. O, spontan, generativ və qeyri-qiymətləndiricidir, məntiqə və dəlillərə deyil, intuisiyaya, şüuraltı proseslərə əsaslanır.

Kreativ təfəkkür (düşüncə) nədir? Pedaqoji və psixoloji ədəbiyyatda kreativliyə müxtəlif təriflər verilmişdir. N.Cekson və b. "Ali təhsildə kreativliyin inkişaf etdirilməsi" adlı kitabda həmin termini fantaziya, təxəyyül, təsəvvür və yeni dünyanı kəşf etmək imkanı kimi açıqlamışlar: "*Kreativlik seçilmişlərə deyil, bütün insanlara xas istedaddır, hər kəsdə formalaşdırıla, inkişaf etdirilə bilər*". Təhsilalanlarda kreativliyin inkişafı məsələsini araşdırarkən təlim prosesinin təşkilində tənqidi təfəkkürün rolunu qətiyyən diqqətdən kənarda saxlamaq olmaz.

Tənqidi təfəkkürə dair ədəbiyyatın təhlili göstərmişdir ki, müəlliflər onu nadir hallarda şəxsin istedadı kimi dəyərləndirirlər. Əksər tədqiqatçılar hesab edirlər ki, o, bütün tələbələrin malik olduğu xüsusiyyətdir (əlbəttə, müxtəlif səviyyədə) və ali təhsilin əsas məqsədi də öyrənənlərdə tənqidi təfəkkürün formalaşdırılmasıdır.

S.Bailin qeyd etmişdir ki, yuxarıda haqqında bəhs olunan hər iki termin təfəkkürün tərkib hissəsidir, lakin kreativlik və tənqidi təfəkkürün inkişafı prosesi fərqli pedaqoji yanaşmalara əsaslanır. "*Tənqidi təfəkkür analitikdir. O, verilmiş məzmun və çərçivə daxilində mühakimə aparmağı nəzərdə tutur*" [86, s.27].

Deyilənləri nəzərə alaraq, hesab edirik ki, təlim prosesində tələbələrdə tənqidi təfəkkürün inkişafı, dərketmə vasitələrinin və lazımi məlumatın əldə olunması və təhlili kreativliyin inkişafına bilavasitə zəmin yaradır. Müasir təlimdə hər iki təfəkkür növünün inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyır. Onların vəhdətdə nəzərə

alınması, təlim fəaliyyətinin hər iki təfəkkür növünə istinadən təşkili tədris prosesinin səmərəsinin artmasına bilavasitə təsir göstərir. Kreativliyin inkişafının tənqidi təfəkkürlə paralel şəkildə, həmçinin tənqidi təfəkkür vasitəsilə həyata keçirilməsi təlimin keyfiyyətini ikiqat artırır, qarşıya qoyulmuş məqsədlərə çatmağa zəmin yaradır.

Dissertasiya işinin **“Bakalavriat səviyyəsində təhsilalanlarda kreativliyin inkişaf modeli”** adlanan III fəsli üç paraqrafdan ibarətdir. Bu fəslin birinci paraqrafı ***“Təhsilalanlarda kreativliyin inkişaf etdirilməsinin təlim proqramlarında nəzərə alınması”*** adlanır. Paraqrafda diqqət aşağıdakı məsələlər yönəlir: XXI əsrin ali təhsil müəssisələri “cəmiyyət üzvlərini əmək bazarı, iş yerləri, informasiya texnologiyaları, insanların mədəni mənsubiyyətində baş verən dəyişikliklərə uyğunlaşmaq üçün lazımi kompetensiya, bilik, anlama, yeni bacarıqlarla silahlandırmaqda sosial məsuliyyət daşıyır”.

Tədqiqatımızda problemlə bağlı xarici ölkələrin təcrübəsi araşdırılmamışdır. 2010-cu ildə ABŞ-da kollec və universitet assosiasiyasının əmək bazarında işə götürənlər arasında keçirdiyi sorğu şirkətlərin, fabriklərin, ümumiyyətlə, bütün işə götürənlərin məzunlardan olan gözləntilərinin dəyişdiyini müəyyən etmişdir. Respondentlərin 90%-i qeyd etmişdir ki, keçmişdən fərqli olaraq, müasir mütəxəssis əmək bazarının yüksək və mürəkkəb tələbatlarını ödəmək üçün daha yüksək səviyyəli bilik və bacarıqlara malik olmalıdır. Respondentlərin yalnız 28%-i məzunların əmək fəaliyyətindən razı qaldıqlarını demiş, 68%-i isə bu istiqamətdə fəaliyyətin təkmilləşdirilməsinin zəruriliyini xüsusi vurğulamışdır. Ali təhsilin nəticəsinin dövrün tələblərinə cavab verməməsi işə götürənlərin seçiminə, onların işgüzar münasibətlərinə, məzunların işlə təminatına və ixtisasa uyğun əmək bacarıqlarının formalaşmasına təsirsiz ötüşmür.

Tələbələri real həyata hazırlamaq üçün ali məktəb təlimin elə formasını düşünüb hazırlamalıdır ki, təhsilalanlar naməlum vəziyyət və kontekstlərdə problem, risk, mübahisəli fikirlərlə qarşılaşdıqda onların öhdəsindən gəlib, düzgün qərar qəbul etsinlər. Bu məqsədlə universitetlər öyrənənlər üçün müxtəlif həlli yolu olan, bir neçə cavabdan ibarət problemlər təqdim etməli, səhvlərə görə cəza tədbirlərinin görülmədiyi təlim mühiti yaratmalı və ya mövcud olanları uyğunlaşdırmalıdırlar.

N.Jakson bildirir ki, müvafiq təlim mühiti və şəraitin yaradılması öyrənənlərdə kreativ düşüncə tərzinin inkişafını və onların kreativ fəaliyyətə cəlb olunmasını təmin edir. Tədqiqatçı bu məqsədlə bəzi təkliflər də irəli sürmüşdür:

**Cədvəl 3.1.2**

**Tələbələrdə kreativliyi inkişaf etdirən şərtlərin təlim proqramlarında nəzərə alınması**

| | |
|---|---|
| 1. | Tələbələri ruhlandıran, stimullaşdıran, dərin məmnunluq və şəxsi maraq oyadan vəziyyət formalaşdırmaqla onlara azadlıq və seçim imkanı vermək; |
| 2. | Tələbələrə şəxsi və sosial inkişafa köklənmiş vəziyyətləri müəyyənləşdirmək və dəyərləndirmək üçün zəmin yaratmaq; |
| 3. | Tələbələri riskli, qeyri-müəyyən və naməlum vəziyyətlərdə təcrübəyə hazırlamaq; |
| 4. | Tələbələri çətin vəziyyətlərdəki fəaliyyət zamanı dəstəkləmək, onlara dəyişiklikləri dəyərləndirmək imkanı vermək; |
| 5. | Tələbələrə yaradıcılıq, oyun, tədqiqatçılıq, təşkilatçılıq təcrübəsi qazanmağa, özlərini dəyərləndirməyə, müxtəlif növ fəaliyyətlərdə bilik və bacarıqlarını sınamağa, mürəkkəb vəziyyətlərdə düşünməyə və fəaliyyət göstərməyə kömək etmək; |
| 6. | Tələbələri özlərinin və digərlərinin dəyər verdiyi hadisə və tapşırıqları yerinə yetirməkdə kreativlik, təşəbbüskarlıq nümayiş etdirməyə və resurs mənbəyi olmağa stimullaşdırmaq; |
| 7. | Tələbələrə plüralist, mədəni müxtəlifliklərin təmsil olunduğu müasir dünyada əsas bacarıqların inkişaf etdirilməsi və təcrübədə tətbiqi imkanı yaratmaq; |
| 8. | Tələbələrə əməkdaşlıq, şəxsi inkişaf və təlimə zəmin yaradan əlaqələr təlqin etmək; |
| 9. | Tələbələrdə etik və sosial davranış məsuliyyəti formalaşdırmaq; |
| 10. | Tələbələri həyatlarının qurucusu olmaq üçün məqsədyönlü, müstəqil, özününizamlayan və refleksiv fəaliyyətə həvəsləndirmək,bu istiqamətdə onlara kömək göstərmək. |

Tədqiqatçının təklif etdiyi prinsiplər İngiltərənin Surrey Universitetində (University of Surrey) həyatla əlaqəli kurikulumların tətbiqində istifadə olunmuşdur. Yuxarıda verilmiş fikirlər hazırda Azərbaycan təhsilində gedən proseslərlə, qəbul olunan hüquqi-normativ sənədlər, onların pedaqoji prosesin təşkilinə verdiyi tələblərlə həmahənglik təşkil edir. Həmin prinsiplərin təlim prosesində nəzərə alınması təhsilalanlarda kreativliyin inkişafı ilə yanaşı, bir sıra kompetensiyaların da formalaşdırılmasına xidmət edə bilər.

Dissertasiyanın III fəslinin ikinci paraqrafı ***"Təhsilalanlarda kreativliyin inkişaf etdirilməsində yeni təlim texnologiyalarından istifadə metodikası"*** adlanır. Bu paraqrafda araşdırılan məsələlər aşağıdakılardan ibarətdir: Azərbaycanda təhsil paradiqminin dəyişməsi xarici amillərlə yanaşı, daxili amillərlə də əlaqəlidir. Əsrlərin kəsişməsində Azərbaycan təhsilində ənənəvi yanaşma ilə yeni ictimai münasibətlər arasında ziddiyyətlər özünü kəskin şəkildə biruzə vermişdir. Təhsilimiz dünya mədəniyyətinə görkəmli simalar bəxş etmişdir, lakin müasir dövrdə əsas problem fundamental elmi biliklərin tətbiqinə nail olmaqdır. Hazırda təhsil islahatları məhz bu məsələlərin həllinə yönəlmişdir. Çoxsaylı araşdırmalar göstərir ki, problemin çözümü pedaqoji kadr hazırlığından başlayır. Müasir təhsilin qarşısında dayanan əsas vəzifələrdən biri mütəxəssis potensialını əmək bazarının sürətlə dəyişən tələbatlarına uyğunlaşdırmaqdır. Əmək bazarı mütəxəssisdən bilik deyil, onların təcrübədə tətbiqini, peşə və ictimai funksiyaların yerinə yetirilməsini tələb edir. Beləliklə, yaradıcı, qeyri-adi vəziyyətlərdə çevik qərar qəbulu bacarığına malik, orijinal düşüncə tərzi sərgiləyən kadrların hazırlanması prioritet kimi ön plana çəkilir. Sadalanan xüsusiyyətlərin formalaşdırılması təlim prosesində kreativliyin əvəzedilməz rola malik olmasını bir daha sübuta yetirir.

Təhsilalanlarda kreativlik bacarıqlarının inkişafı və kreativliyə meyilliyin artırılması müxtəlif sahələrin öyrənilməsi prosesində həyata keçirilməlidir. Şəxsi kreativliyin inkişafına təsir göstərən ən önəmli amil pedaqoji şəraitdir. Pedaqoji təcrübənin təhlili göstərir ki, şəxsiyyətin yaradıcı potensialı və kreativ təfəkkür problemin, ziddiyyətlərin müstəqil müəyyənləşdirilməsi, istənilən problemin araş-

dırılması və təhlili, onları həll etmək bacarığı, bilik, bacarıq, təlim fəaliyyətinin yeni vəziyyətlərə köçürülməsi, məlum vəziyyətlərdə yeni tərəfləri görmək qabiliyyəti, mövcud bilikləri, fəaliyyət növlərini yeniləri ilə sintez etməkdə özünü göstərir. Sadalanan bacarıqlar hər zaman anadangəlmə olmur, onları təlim texnologiyaları vasitəsilə məqsədyönlü şəkildə formalaşdırmaq da mümkündür. Şəxsiyyətin kreativliyinin inkişafını təmin edən texnologiyalar arasında fəal təlim (qrup müzakirəsi, beyin həmləsi və onun müxtəlif növləri, keyslər, sinektika metodu və s.) xüsusi rola malikdir.

Təlim prosesində öyrənənlərə əməkdaşlıq etmək imkanı yaradan interaktiv texnologiyaların tətbiqi kreativliyin uğurlu inkişafının əsas şərtlərindəndir. İnteraktiv texnologiyalara interaktiv mühazirə, cütlərlə iş, kişik qruplarda iş, təlimlər və s. aiddir. Fəal təlim texnologiyaları öyrənənlərin idrak fəaliyyətini stimullaşdırır, öyrənənləri davranış və zehni fəallığa cəlb edir, biliklərini zənginləşdirir. Kreativliyə zəmin yaradan texnologiyalarından biri də yaradıcı tapşırıqların həlli pedaqogikasıdır. Onun əsas məqsədi öyrənənləri açıq (evristik, yaradıcı, həyati) problemlərin həllinə alışdırmaqdır. Açıq problemlər tələbələri kreativ, sistemli, məntiqli düşünməyə, dünyanı dərk etməyə, tədris olunan fənlər arsında əlaqələr qurmağa istiqamətləndirir. Kreativ təfəkkürün inkişafına dair proqram və metodikalar hazırlayan alim və pedaqoqlar hesab edirlər ki, kreativ insan potensialının əsas komponentlərini aşağıdakılar təşkil edir:

- divergent düşüncə;
- düşüncə və hərəkətlərdə çeviklik;
- zəngin təxəyyül;
- hadisə və faktlara birmənalı olmayan münasibət;
- risklərə hazırlıq;
- düşüncənin sürəti;
- orijinal ideyalar və qeyri-adi fikirlər.

Yaradıcı tapşırıqların həlli öncədən qurulan alqoritmlər vasitəsilə mümkünləşir, yekunda təkmil və məqsədlə uzlaşan nəticə əldə olunur, mövcud ziddiyyətlər aradan qalxır, xüsusi priyomların effektivliyi üzə çıxır. Təhsilalanların fəaliyyətinin təhlili göstərmişdir ki, yaradıcı tapşırıqların həlli zamanı Qilbertin kreativliyin inkişafı üçün əsas hesab etdiyi xüsusiyyətlərin (məhsuldarlıq, düşüncə çevik-

liyi, orijinallıq və mürəkkəb problemlərin həlli bacarığı) monitorinqini də aparmaq mümkündür. Məhsuldarlığın qiymətləndirilməsi öyrənənlərin müəyyən zaman kəsiyində yerinə yetirdiyi tapşırıqları, hərəkətləri ölçür (ideyaların irəli sürülməsi, arqument və ya əks-arqumentlərin söylənilməsi, şəraitin vizuallaşdırılması, internet şəbəkədə məlumat axtarışı və s.). Adətən, əsas göstəricilər kimi aşağıda sadalanan meyarlara diqqət yetirilir: fakt və hadisələrin şərh edilməsi, nəticənin əldə olunmasına dair mülahizələr və onların həqiqiliyi.

III fəslin üçüncü paraqrafı ***“Təhsilalanlarda kreativliyin qiymətləndirmə vasitəsilə inkişafı”*** adlanır. Bu paraqraf aşağıdakı məsələləri əhatə edir: Müasir dünyada gedən proseslər bütün sahələri əhatə etdiyi kimi təhsildən də yan keçməmişdir. Məhz bu səbəbdən mütəxəssis hazırlığı, ona verilən tələblər keçən əsrin sonundan kəskin şəkildə fərqlənir. Hazırda təkcə Azərbaycanda deyil, dünyanın aparıcı ölkələrinin də təhsil sistemində sürətli dəyişikliklər baş verir. Səbəb isə əmək bazarının daim yenilənən tələbatlarının qarşılanması, onları ödəyən mütəxəssislərin hazırlanmasıdır. Deməli, əmək bazarının dinamik tələbatlarının ödənilməsi üçün mövcud ali təhsil sisteminə yenidən nəzər salınmalı və tədricən islahatlar aparılmalıdır.

Müasir gənclər keyfiyyətli təhsil almaq niyyətindədirlər. Hazırda abituriyentlər seçim etməzdən əvvəl ali məktəb tələbələri arasında sorğu keçirir, universitetdə təlim prosesi, maddi-texniki baza, məzunların işlə təminatı, tədrisin təşkili ilə bağlı araşdırmalar aparır, nəticə çıxararaq qərarlarını dəqiqləşdirirlər. Öyrənənlər təhsilə qoyduqları sərmayənin, vəsaitin doğru istiqamətdə xərclənməsi və gələcəkdə onlara qayıtması arzusundadırlar. Təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına, inkişafına zəmin yaradan amillər arasında ən vacibi keyfiyyətin təminatının ölçü vahidi olan qiymətləndirmədir. Dünyanın aparıcı universitetlərində bununla əlaqədar geniş araşdırmalar aparan təşkilatlar öz tədqiqatlarında, hesabatlarında qiymətləndirmənin təşkili, aparılması və optimallaşdırılması ilə bağlı məlumatlar paylaşırlar.

Ali məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlərlə yanaşı, ona bilavasitə təsir göstərən qiymətləndirməyə xüsusi diqqət yetirmək lazımdır. Tədris prosesindəki

mövcud problemlərdən ən başlıcası geniş tələbə kütləsini təmin edə bilməyən, tələbatları ödəməyən qiymətləndirmə metodlarının tətbiqi məsələsidir. Bu fikri dəstəkləyən G.Gibbs vurğulayır ki: "*Tapşırıqların əksəriyyəti öyrənənləri təlim fəaliyyətinə həvəsləndirmir. "Anlamanın nümayişini tələb edən" irihəcmli, mürəkkəb və bir neçə həlli olan tapşırıqlardan istifadə isə təlimə maraq oyadır, tələbələri stimullaşdırır. Qərb tədqiqatçıları son illər ərzində ali məktəbin qiymətləndirmə siyasətində və təcrübəsində baş verən dəyişiklikləri daha dərindən araşdırır, qiymətləndirmənin tələbələrin asudə vaxtlarının təşkilinə təsiri, səylərini hansı istiqamətə yönəltməsi ilə əlaqədar müzakirələr aparırlar"* [99]. Hazırda məzunların əmək bazarının tələbatlarını ödəməsinə, onların işlə təmin olunmasına, ömürboyu, fasiləsiz təhsilə xüsusi diqqət yetirilir. Bununla da tələbələrə şəxsi təlim proseslərini planlaşdırmaq və nəticələrinin monitorinqini həyata keçirmək bacarığı qazandırmaq prioritet kimi önə çıxır. K.Bryan və K.Kliq qeyd etmişlər ki: "*Müasir dövrdə təlim prosesinin təkmilləşdirilməsində qiymətləndirmənin pedaqogikaya təsiri diqqətdən kənarda qalmışdır*" [102, s.286]. Əslində, müasir qiymətləndirmə biliklərin səviyyəsini ölçən məhdud imkanlara malik ənənəvi dəyərləndirmə sistemindən irəli getməlidir.

A.Kraft bildirmişdir ki: "*Kreativlik Qərb dünyasında universallaşmış müzakirənin bir hissəsi olmuş, təhsilə dair hüquqi normativ sənədlərdə və proqramlarda öz əksini tapmış, müvafiq status qazanmışdır*" [112, s.183]. Deyiləndən belə nəticəyə gəlinir ki, artıq qərb universitetlərində kreativ düşüncəyə malik mütəxəssis hazırlığı ön plandadır və çevik iqtisadi, texniki dəyişikliklərə məruz qalan dünyada innovativ inkişafa, kreativ tələblərə cavab verən işçi qüvvəsi, mütəxəssis hazırlığı üçün təxirəsalınmaz tədbirlər görülməlidir. Yaradıcılıq şəxsi və ictimai inkişafın əsas aspekti kimi nəzərdən keçirilməlidir. Əksər tədqiqatçılar təhsilalanlarda kreativliyin inkişafının vacibliyini vurğulasa da, nəinki Azərbaycanda, hətta dünyanın aparıcı ali məktəblərində kreativliyin qiymətləndirilməsi mexanizmləri tam işlənməmişdir [112, s.183; 159, s.104; 174, s.11]. Məhz bu səbəbdən yaradıcı təxəyyül lazımınca ölçülmür, bəzən isə onun qarşısı alınır. P.Kleiman bildirmişdir ki: "*Problemlə bağlı zəngin ədəbiyyatın olmasına baxmayaraq, kreativlik anlayışına düzgün tərif ve-*

*rilmir, istilahın mənası, məzmunu tam açıqlanmır, istifadə dairəsi dəqiq müəyyənləşdirilmir, barəsində çoxşaxəli və yekdil fikir formalaşdırılmır"* [159, s.104]. Məsələn, H.Qardner kreativliyi fənn üzrə bilik, daxili motivasiya, çeviklik, uyğunlaşma və ziddiyyətli yanaşmaların sınaqdan keçirilməsinə hazırlıq kimi xüsusi koqnitiv (idraki) bacarıqların vəhdəti şəklində qəbul edir [138, s.42]. K.Bayron isə ona daha geniş tərif vermiş, açıq suallara, problemlərə yeni və fərqli cavab olaraq dəyərləndirmişdir [104, s.281-293]. Böyük Britaniyanın Kreativlik və Mədəni Təhsil Milli Məsləhət Komitəsi kreativliyə "orijinal və dəyərli nəticələr çıxarmaq üçün təsəvvür edilən fəaliyyət" tərifini vermiş, lakin həmin ifadələrin hansı mənada işləndiyini açıqlamamışdır [180, s.243].

Tədqiqat zamanı toplanılan materiallar, əldə edilən nəticələr sübut etmişdir ki, tələbələr alternativ təlim metodlarından və tədris yanaşmalarından istifadənin üstünlüklərini maraqla qarşılayır, artıq təhsil aldıqları universitetlə əlaqədar müsbət fikirlər söyləyirlər. Araşdırma innovativ təlim prinsipləri və ümumbəºəri dəyərlərin dəstəkləndiyi mühitin, müxtəlif həll yolu olan problemlərin, onların qiymətləndirilməsi üçün hazırlanan meyarların, praktik, refleksiv və kollaborativ (əməkdaşlıq) təlimin bütün təhsilalanların kreativ potensialını ortaya çıxarması ideyasını təsdiqləmişdir. P.Nayt qeyd edir ki: "*Bizim tələbələri necə qiymətləndirməyimiz, hansı ölçmə vasitələrindən istifadə etməyimiz sahib olduğumuz dəyərin göstəricisidir"* [161, s.28]. Qiymətləndirmə tədris prosesinin önəmli hissələrindən olduğundan ali təhsil müəssisələrinin professor-müəllim heyəti üçün kreativ tapşırıqların tərtibi və qiymətləndirilməsi ilə bağlı müvafiq təlim və seminarlar keçilməlidir. Pedaqoqlar kreativlik, müxtəlif təlim vəziyyətləri, yeni üsul və vasitələrlə əlaqədar geniş müzakirələr aparmalı, kreativ pedaqoji yanaşmalar, ideyalarla bağlı təcrübələrini bölüşməlidirlər. Fəaliyyət məhsullarını əhatə edən portfolionun, təlim nəticələrinin ənənəvi metodlarla ölçülməsi və qiymətləndirilməsi mümkün deyil. Deməli, ali məktəblər təlim məqsədlərini bir daha nəzərdən keçirməli, ümumiyyətlə, qiymətləndirmə sisteminə bütövlükdə yenidən baxmalıdırlar.

Dissertasiya işinin **"Pedaqoji fəaliyyət prosesində kreativliyin inkişaf texnologiyasının səmərəliliyinin eksperiment yolu ilə**

**yoxlanılması"** adlanan IV fəsli üç paraqrafdan ibarətdir. Bu fəslin birinci paraqrafı ***"Problem üzrə təcrübənin öyrənilməsi"*** adlanır. Paraqrafda diqqət aşağıdakı məsələlər yönəlir:

Tələbələrdə kreativliyin inkişaf etdirilməsi problemi bütün dünya mütəxəssislərinin diqqətini cəlb etmişdir. Kreativlik üzrə 2010-cu ildə ABŞ-ın Oklaxoma ştatında Oklaxoma Sitidə keçirilən Beynəlxalq forumda kreativlik bu cür izah olunmuşdur: "*Kreativlik bizim dahi ideyalarımızın, qərarlarımızın əhatə olunmasını təmin edən və gəlir gətirən müəssisələrimizin hərəkətverici qüvvəsidir*". Forumda kreativlik anlayışının mühüm əhəmiyyət kəsb etməsi və bu qlobal tələbata müvafiq olaraq təcili tədbirlərin həyata keçirilməsinin zəruriliyi qeyd olunmuşdur [106].

Bakalavriat səviyyəsində təlim və təlimdənkənar vaxtlarda kreativliyin prinsip və meyarları nəzərə alınmaqla model tətbiq olunarsa, aşağıdakı şərtlər təmin olunarsa, kreativlik intellektual-evristik xüsusiyyət kimi ali məktəb resursu qismində çıxış edər. İrəli sürülən ideyaların doğruluğunu sübut etmək üçün aşağıdakı fərziyyələr irəli sürülmüşdür:

- təhsilalanları kreativliyə həvəsləndirən, təlim prosesinin bütün subyektlərinə özünüinkişaf üçün imkanlar təmin edən, auditoriyada həyata keçirilən təlim prosesi ilə auditoriyadankənar fəaliyyət arasında əlaqələri nəzərdə tutan, informasiya kommunikasiya texnologiyalarının mövcudluğu və elmi-tədqiqat fəaliyyəti üçün şərait ilə səciyyələnən kompetensiya yönümlü kreativ təlim mühiti yaradılarsa;
- kreativliyin əsasını təşkil edən, müstəqil tədqiqata həvəsləndirən təlim məqsədlərinin əldə olunması prosesində fənlərarası nəzəri və praktik biliklərin inteqrasiyasına şərait yaradılarsa;
- yaradıcı idrak-təlim fəaliyyətinə üstünlük verməklə reproduktivdən kreativə, təxəyülün inkişafını təmin edən fəaliyyətə keçid təmin olunarsa;
- innovativ-kreativ təlim texnologiyalarının mənimsənilməsi üzrə xüsusi hazırlıq əsasında müəllimin potensialı yüksələrsə, tələbələrin kreativ təlim fəaliyyətində özünüreallaşdırmalarının yüksək səviyyəyə çatdırılmasına zəmin yaranar, sərbəst düşüncə tərzi, dərketmə, özünüinkişaf və yaradıcılığının inkişafı baş verər.

Tədqiqatımızın məntiqi davamı olaraq, bu mərhələdə tələbələrdə kreativliyin inkişafına təsir göstərən amil və fəaliyyətləri araşdırmaq qərarına gəldik. Bu məqsədlə müəyyənedici eksperiment mərhələsində ADU-da fəaliyyət göstərən mərkəz, laboratoriyaların fəaliyyətini, həyata keçirilən layihələrin problemin həllinə təsirini nəzərdən keçirdik.

Universitetdə ABŞ, Fransa, Çin, Hindistan, Serbiya, İndoneziya, Norveç, və Avstriya və s. ölkələrin səfirliklərinin təşəbbüsü ilə mədəniyyət və informasiya – resurs mərkəzləri fəaliyyət göstərir. Konfutsi İnstitutu, Höte İnstitutu nəzdində Alman Oxu Zalı, OEAD (Osterreichische Austauschdienst) və Avstriya Kitabxanası kimi nüfuzlu təşkilatların şöbələri mövcuddur. ADU-da TOEFL (ABŞ), TOMER (Türkiyə), AYOS və OEAD (Almaniya) dil testlərini keçirmək üçün təsdiq olunmuş institutdur. ADU Britaniya Universitetləri ilə geniş əlaqələr qurmuşdur. Universitet Essex Universiteti ilə ESL üzrə 2-li bakalavr proqramını həyata keçirir, tələbələrinin mübadiləsi sahəsində Qlasqo Universiteti ilə uzunmüddətli əməkdaşlıq edir.

Tədqiqat zamanı aparığımız araşdırmalar göstərmişdir ki, tələbələr adəti üzrə öyrəndikləri mühitdə fəaliyyət göstərən zaman yeni, yaradıcı fəaliyyətə bir o qədər də meyilli olmurlar. Lakin adət etdikləri komfort zonasından çıxdığı zaman kreativlik özünüinkişaf mexanizmi kimi təhsil müstəvisindən həyat fəaliyyəti müstəvisinə keçid alır.

Stenford Universitetinin professoru R.Satton rutin fəaliyyətlə innovativ fəaliyyət arasındakı fərqi belə izah etmişdir: "*Birincisi - köhnə ideyaların istifadəsidir, sonuncu isə yeni imkanlar sahəsində kəşfiyyatdır*" [110]. Söylənilən fikri pedaqoji müstəvidə nəzərdən keçirsək belə nəticəyə gələrik ki, xaricdə mübadilə proqramlarında iştirak bilavasitə innovativ fəaliyyətlə bağlıdır və təhsilalanlara yeni təlim imkanlarını araşdırmaq imkanı verir. Rutin fəaliyyət isə universitet çərçivəsində, təcrübədən dəfələrlə keçmiş, dəqiqliklə işlənib hazırlanmış prosedur və fəaliyyətlərə əsaslanır. İnnovativ fəaliyyətə isə tələbələrin xarici ölkələrə səfərlərini aid etmək olar, bu səfərlər zamanı onlar tamamilə yad şəraitə düşür, qeyri-müəyyən vəziyyətlə üzləşir, təbii dil və qeyri-adi təlim mühitində bir sıra maneələri aradan qaldırmaq məcburiyyətində qalırlar.

Tədqiqat zamanı universitetdə tədris olunan fənlər, onların məzmunu kreativliyin inkişafına təkan baxımından təhlil edilmişdir. Onlardan "Müasir təhsilin əsasları" adlı seçmə fənn və eyni adlı dərslik, fənnin məzmunu respublikada təhsil sistemində gedən proseslərdən çıxış edərək tərtib olunmuşdur. Burada Azərbaycan pedaqogikası üçün yeni sayılan yanaşmalar tədqiq edilmiş, tələbələrin ixtiyarına verilmişdir. Fənnnin tədrisində tədris strategiyaları, səmərəli öyrətmə və öyrənmə üsulları, təlimdə diferensiallaşma, onun yolları, fəal təlim üsulları, fərdi yanaşma, planlaşma kimi mövzuların tədrisində geniş müzakirələr, hər mövzuya dair müxtəlif tapşırılqarın verilməsi, qrup və cütlərlə işin aparılması, tələbələrin müstəqil yaradıcı fəaliyyətinin təşkili, keyslərdən istifadə təhsilalanların yaradıcı fəaliyyətinin təşkilini, kreativ düşüncə tərzinin inkişafını təmin edir [22].

Tədqiqatımızın bu mərhələsində ADU-da tələbələrin təşkil etdiyi tədbirləri, onların asudə vaxtının təşkili geniş araşdırılmış, onlarda kreativliyin inkişafı baxımından təhlil edilmişdir. Belə ki, ADU-da tələbələrin fəaliyyəti ölkə Prezidentinin Fərman, Sərəncam və göstərişlərini, "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununu, "Azərbaycan gəncliyi 2017–2021-ci illərdə" Dövlət Proqramı"na əsasən tənzimlənir. Həmin proqramın müddəalarında gənc nəslin inkişafı məqsədi ilə münbit şəraitin yaradılması, gənc alim və tədqiqatçıların fəaliyyətinin dəstəklənməsi, tələbə təşəbbüskarlığının həvəsləndirilməsi, gənclərin beynəlxalq mübadilə və mədəniyyətlərarası dialoqda iştirakının təmin edilməsi nəzərdə tutulmuşdur. Xüsusi diqqət gənclərin intellektual inkişafının, yaradıcılıq fəaliyyətinin stimullaşdırılmasına verilmişdir. Qeyd olunan müddəaların reallaşdırılması məqsədilə adıçəkilən universitetdə müxtəlif tədbir və faəliyyətlər həyata keçirilir.

Heydər Əliyevə həsr olunmuş rəsm müsabiqəsi və "Nə? Harada? Nə zaman?" intellektual yarışı, Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə tələbələr arasında inşa yazı müsabiqəsi, bədii yaradıcılıq festivalı, Heydər Əliyev irsi və Müasir Azərbaycan" mövzusunda dəyirmi masa və s. Bundan əlavə, Heydər Əliyevin 95 illik yubileyi münasibətilə respublika tələbə-şagird elmi konfransı keçirilmişdir. Konfransa Respublikanın müxtəlif ali və orta məktəblərin tələbə və şagirdləri qatılmışlar. Tələbə Elmi Cəmiyyəti-

nin ali məktəblərdə fəaliyyəti hazırda əhəmiyyət kəsb edən məsələlərdəndir. Tələbələrin tədqiqatçılıq fəaliyyətinə cəlb olunması onlarda kreativliyin inkişafına xüsusi təkan verir.

Təcrübənin öyrənilməsi göstərdi ki, tələbələrin kreativliyi daha çox təlimdənkənar fəaliyyətə yönəlmişdir, belə ki, onlardan 64 % əl işləri nümayiş etdirmiş və yaxud müxtəlif iş üsulları fikirləşib təqdim etmişlər. 23% tələbələrdə nitq üzrə kreativlik inkişaf etmişdir.

Alınan dəlillər göstərir ki, tələbələr kreativliyi təlim prosesində özünüreallaşdırma kimi qiymətləndirməmişlər. Onlar qeyd edirlər ki, təlim prosesində onlardan kreativlik nümayiş etdirmək tələb olunmur.

Beləliklə, apardığımız araşdırmalardan belə nəticəyə gəlmək olar ki, tələbələrdə təhsil almağa, şəxsiyyət kimi inkişaf etməyə və gələcəkdə sərmayə qoymaq istəyi formalaşmışdır. Onlar xarici universitetlərdə olduqları müddətdə praktikyönümlü təlimi dəyərləndirir, mühazirələrdə tələbələrin iştirak etməsinin vacib olmadığını bəyənir. Çünki bütün materiallara universitetin saytında baxmaq olar.

Onu qeyd etmək lazımdır ki, tələbələr təhsil aldıqları öz universitetlərində əldə etdikləri nəzəri bilikləri xarici ölkələrin ali məktəblərində oxuyarkən təcrübəyə və layihə işlərinə tətbiq edirlər. Tələbələr müxtəlif ölkələrdən gələn tələbələrlə və müəllimlərlə olan ünsiyyətini müsbət qiymətləndirir. Bu ünsiyyət yalnız ingilis dilini dərindən öyrənməyə deyil, həmçinin o xalqların adət və ənənələrini, mədəniyyətini dərindən öyrənməyə imkan yaradır.

Göründüyü kimi tələbələrin bu cür marağı onlarda kreativliyin inkişafına zəmin yaradır. Onlar dil baryerini aşaraq ingilis dilində daha sərbəst danışır, linqvistik kompetensiyanın təkmilləşdirilməsi üçün motivasiya daha dəqiq izlənilir. Müşahidələr göstərdi ki, təlim prosesindəki kreativlik keyfiyyətləri tələbələrin həyat təcrübəsinə də sirayət edir.

Lakin deyilənlər tələbələrin bir qismini əhatə edir və pərakəndə şəkildə inkişaf etdirilir. Məhz buna görə də tələbələrdə kreativliyin inkişafı üzrə iş sisteminin yaradılmasına ehtiyac vardır.

**Müəyyənedici eksperiment.** Müəyyənedici eksperiment zamanı müəllimlər öz fənləri üzrə mövcud olan proqram, dərslik və

əlavə metodik ədəbiyyatdan istifadə etmişlər (çalışmalar, keyslər, oyunlar və s. aparılmışdır):

a) tələbələr mühazirələri dinləyir;

b) seminarlarda dinlədikləri mühazirələrin məzmunu üzrə hazırlaşıb cavab verir;

c) praktik məşğələlərdə iştirak edir;

ç) tələbələrə keyslər, çalışmalar və rollu oyunlar təklif olunur;

ç) pedaqoji təcrübə keçir.

Təlim ənənəvi təlim üsulları ilə təşkil edilmişdir.

Müəyyənedici eksperimentin təşkili

Müəyyənedici eksperiment 2018-2019-cu illərdə təşkil edilmiş, Təhsil, Esseks, Sabah və Filologiya fakultələrinin I, II, III və IV kurslarından 98 nəfər tələbə cəlb olunmuşdur. Eksperimentə ADU-nun ixtisas fənləri üzrə müəllimlər cəlb edilmişlər. Lakin onlarla kreativliyin inkişaf etdirilməsi üzrə hazırlıq aparılmamaışdır.

Müəyyənedici eksperimentin nəticələrinin qiymətləndirilməsi tələbələrin kreativliyi üzrə fərdi qaydada həyata keçirilmişdir. Tədris ili ərzində iki dəfə tələbələrin mənimsəmə səviyyəsi müəyyənləşdirilmişdir.

Birinci yoxlamanın məqsədi tələbələrin kreativliyin meyarları üzrə yaradıcılığının, dünyagörüşünün və bilik səviyyələrinin müəyyənləşdirilməsi olmuşdur.

İkinci yoxlamada isə tələbələrin kreativlik üzrə əldə etdikləri kompetensiyaların son nəticəsinin dəqiqləşdirilməsi olmuşdur.

Həm müəyyənedici, həm də öyrədici eksperimentin nəticələrinin qiymətləndirilməsi tələbələrin fəaliyyətinin müşahidə edilməsi zamanı qarşılaşdığı çətinlikləri nəzərə almaqla tərtib etdiyimiz yoxlayıcı keyslər, tapşırıqlar, testlərin təqdim edilməsi (yoxlayıcı metodika) ilə həyata keçirilmişdir.

Tələbələrin müstəqil işi müxtəlif situasiyalarda problemli tapşırıqların yerinə yetirilməsi ilə davam etdirilmiş, nəticələr təhlil olunub ümumiləşdirildikdən sonra onlardan hər birinin kreativlik keyfiyyətlərinin formalaşması dəqiqləşdirilmişdir.

Müəyyənedici eksperimentin nəticələri aşağıdakı cədvəldə göstərilmişdir (Cədvəl 4.1.3).

**Cədvəl 4.1.3**

**Kreativlik keyfiyyətlərinin formalaşması üzrə aparılan müəyyənedici eksperimentin nəticələri**

| İllər | Kontrol qruplar | Tələbələrin sayı | Tapşırıqların yerinə yetirilmə səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Aşağı | Orta | Yüksək |
| 2018 - 2019 | I kurs Təhsil fakültəsi | 28 n | 12<br>42,8% | 13<br>46,4% | 3<br>10,7% |
| | II kurs Esseks qruplar | 14 n | 8<br>57,1% | 4<br>28,5% | 2<br>14,2% |
| | III kurs Sabah qrupları | 27 n | 15<br>55,5% | 10<br>37,0% | 2<br>7,4% |
| | IV kurs Filologiya fakultəsi | 29 n | 16<br>55,1% | 11<br>37,9% | 2<br>6,8% |




Göründüyü kimi, müəyyənedici eksperiment zamanı kontrol qruplarında (98 nəfər), tələbələrinin kreativ keyfiyyətlərin inkişaf göstəriciləri I kurs təhsil fakultəsində müvafiq qaydada aşağı 42,8% , orta 46,4% və yüksək 10,7% səviyyəsindədir.II kurs Esseks qruplarında

müvafiq qaydada aşağı 57,1%, orta 28,5% və yüksək 14,2% olmuşdur. III kurs Sabah qruplarında isə aşağı səviyyə 57,1%, orta 37,0% və yüksək 14,2% göstəricilərlə müşahidə olundu. Filologiya fakültəsinin IV kursunda tələbələrin kreativlik keyfiyyətlərinin göstəriciləri aşağı səviyyədə 55,1%, orta səviyyədə 37,9%, aşağı səviyyədə isə 6,8% idi.

Müəyyənedici eksperiment mərhələsində çox mühüm qanunauyğunluq da aşkar edildi: tələbələr hesab edir ki, onların təlimdənkənar kreativliyi təlim prosesində müəllimlərin kreativlik keyfiyyətlərinin inkişafına kifayət qədər fikir verməməsi ilə əlaqədardır. Yalnız praktik ingilis dili, pedaqogika və psixologiya dərslərində onlara keyslər, xüsusi situasiyalar, tapşırıqlar təqdim etməklə kreativ yanaşmaya şərait yaranmışdı.

Eksperimentin gedişində müəyyən oldu ki, tələbələr kreativliyi çox dəyərli keyfiyyət hesab edir və gələcəkdə uğurlu karyera qurmağın əsas amillərindən biri kimi görürlər. Bundan əlavə, tələbələr mühüm keyfiyyətlər sırasına kommunikabellilik, səliqəlilik, xeyirxahlıq, məqsədyönlülük, tərbiyəlilik, düşüncəlilik, risk, ünsiyyət qurmaq anlayışlarını da əlavə etdilər.

Beləliklə, tələbələrin kreativliyi inkişaf etdirmək fikri ilə müəllimlərin bu problemi real qiymətləndirməməsi arasında ziddiyyət yaranır.

Yoxlayıcı metodika vasitəsilə müəyyənedici eksperimentin nəticələri yoxlanarkən aşağıdakı ziddiyyətlər özünü büruzə verdi. Bunlar aşağıdakılardır:

1. Tələbələrdə kreativliyin inkişafı üzrə verilən tələblərlə müəllimlərin bu sahədə təcrübəsinin kifayət qədər olmaması arasında.
2. Təlim prosesinin ənənəvi şəkildə keçirilməsi ilə şəxsiyyətin kreativ inkişaf etdirilməsi zərurəti arasında.
3. Tələbələrdə yiyələndikləri ixtisas haqqında tam təsəvvürün formalaşdırılması ilə yaradıcılığını məhdudlaşdıran praktik bacarıqların olmaması arasında.
4. Təlim prosesinə marağın formalaşdırılması ilə tələbələrin fərdi xüsusiyyətlərinin, maraq, meyil və tələbatlarının nəzərə alınmaması arasında.

Müəyyənedici eksperimentdən aldığımız nəticələr aşağıdakı kimi ümumiləşdirilmişdir:

- tələbələr kreativliyi təlim prosesində özünüreallaşdırma üsulu kimi qiymətləndirmirlər. Kreativlik göstəricilərinin tətbiq edilməsini

yalnız təlimdənkənar fəaliyyətdə görürlər;

- tələbələrin elmi-tədqiqat işlərinə marağı azdır. Bu isə müəllimlərin tələbələrlə elmi-tədqiqat işlərinin aparılmasına kifayət qədər diqqət yetirməməsi ilə bağlıdır. Universitetdə tələbələr kollektiv elmi axtarışlara, tədqiqat işlərinə cəlb olunmurlar;

- tələbələr universitet mühitini kreativliyin inkişaf məkanı kimi görmürlər və hesab edirlər ki, kreativlik insanın emosional vəziyyətindən, əhval-ruhiyyəsindən asılı olaraq kənarda fərdi və kollektiv şəkildə özünü büruzə verə bilər.

Müəyyənedici mərhələdə o da müəyyən oldu ki, tələbələr inadkarlığı, əzmkarlığı, cəsarəti, vicdanlılığı, nizam-intizamlılığı, kommunikabelliliyi, səliqəliliyi, xeyirxahlılığı, məqsədyönlülüyü, tərbiyəliliyi, şüurluluğu, insanlarla ümumi dil tapmağı kreativ keyfiyyətlərin inkişafında mühüm amillərdən hesab edirlər. Burdan belə nəticəyə gəlmək olar ki, kommunikasiya və əməkdaşlıq dəyərləri daim bir-birini tamamlayır. Ümumilikdə, alınan nəticələr göstərir ki, kreativlik tələbələrin dəyər anlayışlarına daxildir və onu təkmilləşdirmək, inkişaf etdirmək mümkündür.

IV fəslin ikinci paraqrafı *“**Öyrədici eksperiment**”* adlanır. Bu paraqraf aşağıdakı məsələləri əhatə edir:

2019-2020-ci tədris ilində eksperimentə ADU-nun Təhsil, Esseks, Sabah və Filologiya fakültələrinin I, II, III və IV kurs tələbələri cəlb edildi. Öyrədici eksperimenti aparmaq üçün I, II, III və IV kurs müəllimləri ilə tələbələrin kreativliyi üzrə xüsusi təlimlər keçirildi. Müəllimlər öz məşğələlərində kreativliyi inkişaf etdirmək priyomlarından istifadə etdilər. Müəyyənedici eksperimentin nəticələri göstərdi ki, müvafiq təlim mühitinin yaradılması tələbələrdə kreativliyin inkişaf etdirilməsi üçün kifayət qədər potensialın olduğunu göstərir. Bunun üçün müəllimin özünün kreativ olması, yaradıcılığa geniş yer verməsi, tələbələri rəğbətləndirməsi, müvafiq tapşırıqlarla müstəqil fikirlər söyləməyə, təşəbbüskarlığa sövq etməsi, bəzən isə yumora yer verməsi məqsədəuyğundur. Bu zaman tələbələrin təlim prosesində inkişaf edən kreativlik imkanları tədricən həyat fəaliyyətinə də sirayət edir. Eksperiment yuxarıda deyilənləri nəzərə alaraq tərtib etdiyimiz modul proqramı əsasında aparıldı (Proqram əlavələrdə verilmişdir).

Eksperimentin məqsədi:

- tələbələrdə kreativliyin inkişafının yeni modelinin həyata keçirilməsi;
- irəli sürülmüş fərziyyənin həqiqiliyinin isbat edilməsi;
- təqdim edilmiş yeni modelin səmərəliliyinin bütün aspektlərdə yoxlanılması;

Eksperimentin vəzifələri:
- modullar üzrə hər bir sferada inteqrativ yanaşma;
- nəticələrin əvvəlki yoxlayıcı metodika ilə qiymətləndirilməsi (müəyyənedici eksperimentdə olduğu kimi);
- müəyyənedici və öyrədici eksperimentin nəticələrinin müqayisə edilməsi və yeni modelin səmərəliliyinin qiymətləndirilməsi;
- tədqiqatın nəticələrinin yekunlaşdırılması.

**Cədvəl 4.1.4**

**Kreativlik keyfiyyətlərinin inkişafı üzrə təlim prosesində və təlimdənkənar vaxtlarda tələbələrlə aparılan öyrədici eksperimentn nəticələri**

| İllər | Eksperimental Qrupları | Tələbələrin sayı | Tapşırıqların yerinə yetirilmə səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Aşağı | Orta | Yüksək |
| 2019-2020 | I kurs Təhsil fakültəsi | 30 n | 5 16,6% | 13 43,3% | 12 40% |
| | II kurs Esseks qruplar | 15n | 2 13,3% | 5 33,3% | 8 53,3% |
| | III kurs Sabah qrupları | 30 n | 4 13,3% | 12 40% | 14 46,6% |
| | IV kurs Filologiya fakültəsi | 30 n | 5 16,6% | 14 46,6% | 11 36,6% |
| 2018-2019 | Kontrol qruplar | Tələbələrin sayı | Aşağı | Orta | Yüksək |
| | I kurs Təhsil fakultəsi | 28 n | 42,8% | 46,4% | 10,7% |
| | II kurs Esseks qruplar | 14 n | 57,1% | 28,5% | 14,2% |
| | III kurs Sabah qrupları | 27 n | 55,5% | 37,0% | 7,4% |

| | | | | | |
|---|---|---|---|---|---|
| | IV kurs Filologiya fakultəsi | 29 n | 55,1% | 37,9% | 6,8% |







Öyrədici eksperimentin nəticələrinə əsasən, eksperimental qrupların tələbələri kontrol qruplarının tələbələri ilə müqayisədə daha yaxşı nəticələr əldə etdiyi müəyyən oldu ki, bu da kreativlik keyfiyyətlərinin inkişafı üzrə təlim prosesində təqdim etdiyimiz marerialların səmərəliliyi ilə əlaqədardır.

Cədvəldən göründüyü kimi, kontrol qruplarının göstəriciləri (98 nəfər) I kursda aşağı səviyyədə 42,8%, orta səviyyədə 46,4% yüksək səviyyədə 10,7%, II kursda aşağı səviyyədə 57,1%, orta səviyyədə 28,5% və yüksək səviyyədə 14,2%, III kursda aşağı səviyyədə 55,5%, orta səviyyədə 37,0% yüksək səviyyədə 7,4% olmuşdursa, IV kursda aşağı səviyyədə 55,1%, orta səviyyədə 37,9% və yüksək səviyyədə 6,8% olmuşdursa, eksperimental qruplarda bu

dəyişiklik özünü daha qabarıq şəkildə büruzə verir. Belə ki, eksperimental qrupların (105 nəfər) kreativ inkişaf göstəriciləri bu nisbətdə təzahür edir: kreativliyin nümayiş etdirilməsi I kursda aşağı səviyyədə 42,8%-dən 16,6%-ə düşmüşsə, orta səviyyədə 43,3% olmuş, yüksək səviyyədə isə 10,7%-dən 40%-ə qalxmışdır. II kursda tələbələrin kreativlik göstəriciləri aşağı səviyyədə 57,1%dən 13,3%-ə düşmüş, orta səviyyədə 28,5%-dən 33,3%-ə, yüksək səviyyədə isə 14,2%-dən%-dən 53,3%-ə yüksəlmişdir. III kurs tələbələrinin kreativlik göstəriciləri kontrol qrupda aşağı səviyyədə 55,5% oldugu halda, eksperimental qrupda bu rəqəm 13,3%-ə qədər düşmüşdür. Orta səviyyədə 37,0%-dən 40 %-ə, yüksək səviyyədə isə 7,4%-dən 46,6%-ə qalxmışdır. IV kurs tələbələrinin kontrol qrupda kreativlik inkişafı aşağı səviyyədə 55,1% olmuş, eksperiment qrupda isə bu rəqəm xeyli aşağı düşərək 16,6% həcmində olmuşdur. Orta səviyyədə tələbələrin göstəriciləri 39,7%-dən 46,6%-ə, yüksək səviyyədə isə 6,8%-dən 36,6%-ə yüksəlmişdir. Bu göstəricilər tələbələrdə kreativ keyfiyyətlərin inkişafı üzrə təqdim etdiyimiz təlimin səmərəliliyini, irəli sürdüyümüz fərziyyənin doğruluğunu bir daha sübut etdi.

IV fəslin üçüncü paraqrafı *"Yoxlayıcı eksperiment"* adlanır. Bu paraqraf aşağıdakı məsələləri əhatə edir:

Eksperimentin yoxlayıcı mərhələsində tələbələrdə kreativlik keyfiyyətlərinin formalaşdırılması üzrə öyrədici metodikanın təlim prosesində və təlimdənkənar vaxtlarda səmərəliliyi müəyyənləşdi və bunun inkişaf dinamikası yuxarıda göstərilən meyarlar üzrə yoxlanıldı.

Eksperimental qruplarda eksperimentin yekunu ilə bağlı öyrədici və yoxlayıcı eksperimentlərin səmərəliliyini müəyyənləşdirmək məqsədi ilə tətbiq edilən yoxlama sualları, tapşırıqları, situasiyaları və testləri tələbələrin kreativlik keyfiyyətlərinin fərqlərini üzə çıxardı. Məhz bunun nəticəsi idi ki, eksperimental qrup tələbələri verilən hər cür tapşırığı və müstəqil işləri kontrol sinif tələbələrindən daha yüksək fəallıq və keyfiyyətlə yerinə yetirirdilər.

**Yoxlayıcı eksperimentin nəticələri**

Beləliklə, yoxlayıcı eksperiment mərhələsində irəli sürdüyümüz fərziyənin doğruluğu isbat olundu. Pedaqoji eksperimentin müəyyənedici və öyrədici mərhələlərinin müqayisəli nəticələri öyrədici mərhələdə tələbələrin kreativlik keyfiyyətlərinin inkişaf sə-

viyyəsinin bütün göstəricilər üzrə (bilik səviyyəsi, idrak fəallığı, orijinallıq, təxəyyülün inkişafı, intuisiya, yumor hissi, peşəyə yaradıcı yanaşma, proqnozlaşdırma, özünüqiymətləndirmə, özünüinkişaf, yaşıdları və digər insanlarla ünsiyyəti, liderlik bacarıqları, ekspert mədəniyyəti, obyektiv tənqid və s.) daha yüksək olduğu sübut olundu.

Bütün bu göstəricilər tələbələrdə kreativ keyfiyyətlərin inkişaf etdirilməsi və formalaşmasında tətbiq olunan modelin daha səmərəli olduğunu sübut etməyə əsas verdi. Tələbələr həm təlim prosesində, həm də auditoriyadankənar vaxtlarda müəllim və kollektivin üzvləri ilə asanlıqla ünsiyyətə daxil olur, yeni təkliflər verir, layihələr üçün ideyalar irəli sürür, təşəbbüskarlığa səy göstərirlər, fikir söyləməyi, qərar verməyi, nəticə çıxarmağı və bir-birinə güzəştə getməyi bacarırlar.

Beləliklə, eksperimental tədqiqatın nəticələri göstərdi ki, tələbələrdə kreativ keyfiyyətlərin inkişafı üzrədidaktik modelin tətbiqi I-IV kurs tələbələrinin yaradıcı və şəxsiyyətyönümlü inkişafında müsbət nəticələr əldə etməyə imkan vermişdir.

Qeyd etmək lazımdır ki, yüksək nəticə əldə edən tələbələrin müəllimlərinin də fəaliyyəti xüsusi qeyd olundu. Xüsusi təlim keçmiş məllimlər tələbələrlə daha rahat ünsiyyət edir, onları yaradıcılığa yönəldir, təşəbbüskarlığa sövq edir, arabir yumora da yer verirdilər.

Kreativlik səviyyəsinə görə müəllimləri üç qrupa bölmək olar:

I qrupa ənənəvi üsullarla işləyən, sadə fəaliyyət prosesində yenilik etməyə çalışan müəllimləri aid etmək olar.

II qrupa maraqlı və nisbətən mürəkkəb fəaliyyət prosesində özünün yeni metodlar sistemini tətbiq edən müəllimləri aid etmək olar.

III qrupa isə kreativlik sahəsində təlim texnologiyalarını işləyib hazırlayan müəllimlər daxil edilmişdir.

I qrupun müəllimləri "Müəllimin kreativ qabiliyyətləri hansılardır? Bunu inkişaf etdirən amilləri sadalayın" sualına aşağıdakı kimi cavab verilmişdir:

Qabiliyyətlər bunlardır: müşahidə və təhlil etmək bacarığı, ümumiləşdirmək, əsas fikri tutmaq, nəticəni əvvəlcədən təsəvvür etmək. Amillərə isə didaktik bacarıqlar sistemini,təlimin və təlim materialının keyfyyətini, tələbələrin suallarını, ünsiyyəti aid etdilər.

Beləliklə, onların fikrincə kreativ müəllim psixoloji-pedaqoji təfəkkürə, pedaqoji ustalığa malik olmalı, tədqiqatçılığı, tənqidi yanaşmağı bacarmalı və qabaqcıl təcrübədən istifadə etməlidir.

II qrupun müəllim ləri "Müəllimin kreativ keyfiyyətlərinin inkişafı üçün necə şərait olmalıdır? Əgər yoxdursa, bunu necə yaratmaq olar? Suallarına cavablar belə oldu: kollektivdə əxlaqi-psixoloji abu-hava yüksək olmalı, yeniliklər etməyə stimul yaranmalıdır, müəssisənin maddi bazası normal olmalı, azad tənqidə yer verilməli, diskussiyalar keçirilməli, idarə edənin şəxsiyyətinin təsiri və asudə vaxt olmalıdır.

Beləliklə, müəllimin keativliyinin inkişafı üçün dəqiqlik, nizam-intizam, dürüstlük, ruh yüksəkliyi,diqqət, iradə, özünəəminlik kimikeyfiyyətlər vacibdir.

III qrup müəllimlərə isə verilən suallar belə idi. "Kreativ pedaqoqun hansı keyfiyyətləri tələbənin yaradıcı potensialını aşkar edir və inkişaf etdirir. Pedaqoqun vəzifəsi nədən ibarətdir?" suallarına cavablar aşağıdakı kimi oldu:

Pedaqoji takt, tələbənin keçirdiyi hisslərə və fikirlərinə şərik olmaq qabiliyyəti, aktyorluq bacarığı, gözlənilməz suallar vermək, problem situasiyalar yaratmaq, təşəbbüslərin dəstəklənməsi ikitərəfli proses kimi baxılır.

Beləliklə, kreativ şəxsiyyətin formalaşdırılması bir tərəfdən müəllim şəxsiyyətinin yaradıcı keyfiyyətlərə malik olması ilə, digər tərəfdən isə yaradıcı fəaliyyət təcrübəsinin əldə edilməsi ilə əlaqədardır.

## Nəticə

Aparılmış elmi-nəzəri tədqiqatların, pedaqoji təcrübənin təhlili və ümumiləşdirilməsi və eyni zamanda Təhsil-1 və Təhsil-2, Esseks, Sabah və Filologiya fakültələrində (I, II, III və IV kurs tələbələri) aparılmış pedaqoji eksperimentə əsasən aşağıdakı nəticələri əldə etmişik:

Elmi-pedaqoji və metodik ədəbiyyatın təhlili, həmçinin pedaqoji təcrübənin öyrənilməsi və ümumiləşdirilməsi göstərdi ki, tələbələrin kreativ inkişafı üzrə ölkəmizdə kifayət qədər tədqiqat işləri aparılmayıb və bu sahədə elmi yazılar azdır. Universitet pedaqoqlarının təcrübəsində tələbələrin kreativliyini inkişaf etdirən üsullara qismən rast gəlinir [26].

Kreativlik və innovasiyalar dövrün tələbi olduğundan, islahatlara təhsilin formatı, məzmunu və metodologiyasından başlanır. Bu, əvvəllər qazanılmış müsbət təcrübə əsasında bütün istiqamətlər üzrə davamlı yeniliklərin həyata keçirilməsi ilə nəticələnir. Dəyişikliklərin əsas hərəkətverici qüvvəsi müəllimlərdir. Kreativ pedaqoqlar yanaşma və metodlarında daim dəyişiklik aparmaqla, yenilikləri təlim prosesində və təlimdənkənar vaxtlarda aparılan məşğələlərdə tətbiq edirlər.

Tədqiqat göstərdi ki, təlim prosesində kreativliyin inkişafı təlim materialının yeni, orijinal yollarla çatdırılması, tələbələrdə problem həlli vasitəsilə kreativ düşüncənin formalaşdırılmasıdır [41].

Tədqiqat göstərdi ki, kreativliyin inkişafının təhsilin bütün pillələrində təmin olunması mühüm əhəmiyyət kəsb edir, çünki o, innovasiyalara təkan verən mühüm amillərdəndir [85].

Tədqiqat göstərdi ki, müasir dövrdə təhsildə innovativlik təlimin məzmun və metodları ilə yanaşı, qiymətləndirmə prosesində də köklü dəyişikliklər aparılması tələbini doğurur[25].

İnsanların əksəriyyətində kreativliyin kəşfi, inkişaf etdirilməsi və davamlı olaraq geniş tətbiqi mümkündür. Universitet mühitində isə bu özünü daha qabarıq formada göstərir və beləliklə, ali məktəbdə təlim mühiti kreativliyin üzə çıxmasına şərait yarada bilir [37].

Ali məktəblərin əsas prioritet istiqaməti düşüncə tərzinin və kreativliyin inkişafıdır. Fəaliyyətində bu istiqaməti seçən təhsil müəssisəsi daha çox qeyri-ənənəvi təlim üsullarına üstünlük verir, yeni öyrətmə metodlarını araşdırır, təhsilalanların öyrənmə yollarını üzə çıxarır [240].

Ali təhsil sistemində kreativliyin inkişaf etdirilməsi üçün texnologiyaların rolu danılmazdır. Texnologiyaların tətbiqi kreativ təlimin məqsəd və vəzifəsi ilə uzlaşdırıldıqda biliyin, təcrübənin paylaşılmasına və daha səmərəli nəticənin əldə olunmasına zəmin yaranır. Prosesin düzgün tənzimlənməsinin təhsil işçilərinin, pedaqoqların ali məktəbdə kreativliyin inkişaf imkanlarını, kreativ prosesin müvəffəqiyyətlə həyata keçirilməsi yollarını hərtərəfli, ətraflı araşdırmasından asılıdır [22].

Təlim prosesində kreativ təfəkkürlə yanaşı tənqidi təfəkkürün inkişafı da danılmazdır. Tənqidi təfəkkürün inkişafı ilk növbədə müəllimdən, onun hazırlığından, seçdiyi, yararlandığı, tətbiq etdiyi metodlardan, təlim materiallarına tənqidi yanaşmasından, müstəqil, çevik qərar qəbulundan, təhsilalanların maraq, meyil və tələbatlarının nəzərə alınmasından asılıdır [38].

Tədqiqat göstərdi ki, kreativ yanaşma baxımından müəllim-tələbə münasibətləri təhsilin keyfiyyət və səviyyəsinin yüksəlməsini, təlim prosesində tolerant, psixoloji sağlam mühiti təmin edən əməkdaşlığı, qarşılıqlı əlaqələri nəzərdə tutur. Belə yanaşma təkcə hərtərəfli inkişafı deyil, eləcə də biliklərin tam mənimsənilməsinə, təhsilalanlarla yanaşı, öyrədənlərin də şəxsi inkişafına imkan yaradır. Müəllimin özünüinkişafı birbaşa öyrənənin özünüinkişafına təsir göstərir. Müəllimin şəxsiyyəti, daxili dünyası, dəyişikliklərə meylliliyi, pedaqoji fəaliyyətdə, həyatda daxili potensialının reallaşdırılması mühüm əhəmiyyət kəsb edir [236].

Təlim prosesində tələbələrdə tənqidi təfəkkürün inkişafı, dərketmə vasitələrinin və lazımi məlumatın əldə olunması və təhlili kreativliyin inkişafına bilavasitə zəmin yaradır. [22].

Pedaqoji eksperimentin nəticələri göstərdi ki, kontrol və eksperimental qrupların kreativ inkişaf göstəriciləri bu nisbətdə təzahür edir: kreativliyin nümayiş etdirilməsi I kursda 42,8%-dən 16,6%-ə düşmüşsə, orta səviyyədə 43,3% olmuş, yüksək səviyyədə isə

10,7%-dən 40%-ə qalxmışdır. II kursda tələbələrin kreativlik göstəriciləri aşağı səviyyədə 57,1%-dən 13,3%-ə düşmüş, orta səviyyədə 28,5%-dən 33,3%-ə, yüksək səviyyədə isə 14,2%-dən%-dən 53,3%-ə yüksəlmişdir. III kurs tələbələrinin kreativlik göstəriciləri kontrol qrupda aşağı səviyyədə 55,5% oldugu halda, eksperimental qrupda bu rəqəm 13,3%-ə qədər düşmüşdür. Orta səviyyədə 37,0%-dən 40%-ə, yüksək səviyyədə isə 7,4%-dən 46,6% -ə qalxmışdır. IV kurs tələbələrinin kontrol qrupda kreativlik inkişafı aşağı səviyyədə 55,1% olmuş, eksperiment qrupda isə bu rəqəm xeyli aşağı düşərək 16,6% həcmində olmuşdur. Orta səviyyədə tələbələrin göstəriciləri 39,7%-dən 46,6%-ə, yüksək səviyyədə isə 6,8%-dən 36,6%-ə yüksəlmişdir. Bu göstəricilər tələbələrdə kreativ keyfiyyətlərin inkişafı üzrə təqdim etdiyimiz təlimin səmərəliliyini, irəli sürdüyümüz fərziyyənin doğruluğunu bir daha sübut etdi [239].

Müəyyənedici eksperiment mərhələsində çox mühüm qanunauyğunluq da aşkar edildi: tələbələr hesab edir ki, onların təlimdənkənar kreativliyi təlim prosesində müəllimlərin kreativlik keyfiyyətlərinin inkişafına kifayət qədər fikir verməməsi ilə əlaqədardır. [40].

Öyrədici eksperimentin nəticələrinə əsasən eksperimental qrupların tələbələri kontrol qruplarının tələbələri ilə müqayisədə müsbət nəticələr əldə etdiyi müəyyən oldu ki, bu da kreativlik keyfiyyətlərinin inkişafı üzrə təlim prosesində təqdim etdiyimiz materialların səmərəliliyi ilə əlaqədardır [23].

Eksperimentin yoxlayıcı mərhələsində tələbələrdə kreativlik keyfiyyətlərinin formalaşdırılması üzrə öyrədici metodikanın təlim prosesində və təlimdənkənar vaxtlarda səmərəliliyi müəyyənləşdi və bunun inkişaf dinamikası müvafiq meyarlar üzrə yoxlanıldı [238].

Eksperimental qruplarda eksperimentin yekunu ilə bağlı öyrədici və yoxlayıcı eksperimentlərin səmərəliliyini müəyyənləşdirmək məqsədi ilə tətbiq edilən yoxlama sualları, tapşırıqları, situasiyaları və testləri tələbələrin kreativlik keyfiyyətlərinin fərqlərini üzə çıxardı. Məhz bunun nəticəsi idi ki, eksperimental qrup tələbələri verilən hər cür tapşırığı və müstəqil işləri kontrol sinif tələbələrindən daha yüksək yaradıcılıq və keyfiyyətlə yerinə yetirirdilər [24].

Beləliklə, təlim prosesində aşağıdakı amillərin nəzərə alınması kreatiliyin inkişafına müsbət təsir göstərir:

1. Fənlərarası əlaqələrin yaradılması.
2. İntellektin müxtəlif növlərinə istinad edilməsi.
3. Təlim prosesində fərdi xüsusiyyətlərin nəzərə alınması.
4. Kreativliyin əmək bazarında dəyərləndirilməsi və əhəmiyyətinin dərk edilməsi.
5. Kreativ bacarıqların dəqiqliklə və aydın formalaşdırılması.
6. Təlimdə bərabər imkanların yaradılması. Tələbəyönümlülük, inkişafyönümlülük, fəaliyyətin stimullaşdırılması, dəstəkləyici mühitin yaradılmasının əsas prinsiplər kimi müəyyənləşdirilməsi.
7. Təlimdə inklüzivliyin təmin edilməsi.

Tədqiqat prosesində gəldiyimiz nəticələrə əsasən aşağıdakı təkliflərin nəzərə alınmasını məqsədəuyğun hesab edirik:

Ali təhsil müəssisələri bütün mümkün vasitələrilə kreativliyin inkişafını dəstəkləməli və həvəsləndirməlidirlər. Cəmiyyətin yaradıcı düşünən, qeyri-standart qərarlar qəbul edən kreativ mütəxəssislərə olan tələbatı yeni kreativ təlim konsepsiyasının hazırlanmasını labüdləşdirmiş, gələcəyin peşəkar kadrlarının yaradıcı potensialının ortaya çıxmasını və kreativliyinin inkişafını zərurətə çevirmişdir.

Müəllimlər istər universitet daxilində kafedralararası, istərsə də universitetlərarası innovativ təlim metodlarının yayılması üçün həvəsləndirilməli və dəstəklənməli, öz aralarında resursları, təlim materialını bölüşdürmələrinə kömək göstərən məsləhətlərin verilməsi, müsbət, qabaqcıl təcrübənin yayılmasına şərait yaradan şəbəkənin qurulması da faydalı ola bilər. Bu prosesə bütün pedaqoqlar cəlb olunmalı, yeni hədəflərə doğru hərəkət etməlidirlər.

Ali təhsil müəssisələrinin məzunlarının kreativlik səviyyələri ilə iş dünyası arasında gözəçarpan boşluq mövcuddur. Çatışmazlığın aradan qaldırılması üçün müvafiq təlim mühiti formalaşdırılmalı, tələbələrdə kreativliyi inkişaf etdirən, onları həvəsləndirən, real həyata, əmək fəaliyyətinə hazırlayan tədris metodologiyası hazırlanmalı, tətbiq olunmalı, öyrənənlərin kreativliyini yüksəldən vasitə və texnikalar işlənilməlidir.

Təhsilalanlarda kreativliyin inkişaf etdirilməsi ali təhsil təcrübəsinin tərkib hissəsinə çevrilməlidir.

Mövcud çatışmazlıqların aradan qaldırılması universitetdəki peşəkarlar komandasının səyi nəticəsində mümkündür. Buna görə də

ali məktəblər digər təhsil müəssisələri ilə interaktiv əlaqəli şəkildə fəaliyyət göstərməlidir.

Müxtəlif mübadilə proqramlarından yararlanmaq, peşəkarlıq səviyyələrini təkmilləşdirmək, müxtəlif istiqamətlərdə əməkdaşlıq etmək müəllimlərə fəaliyyətlərini təkmilləşdirmək üçün yardımçı olacaqdır.

Universitetlər regional innovativ sistemin bir hissəsinə çevrilməlidir. Buraya ali məktəb, hökumət və sənaye müəssisələri arasındakı daimi əlaqələr aiddir. Üçtərəfli sıx əməkdaşlıq akademik məsləhətlərin keçirilməsinə, tədqiqatların istiqamətinin maliyyələşdirilməsinə, sahibkarlıq sahəsində layihələrin hazırlanması və tətbiqinə imkan yarada bilər.

Tədris prosesinin innovasiyalara əsaslanması, öyrənənlərin maraq, meyil və tələbatları üzərində qurulması, təlim kursunun daha yaradıcı formada qurulması universitetlərin rəqabətədözümlülüyünü təmin edəcək, məzunların isə əmək bazarında işlə təminatının qarantı olacaqdır. Həmin fəaliyyətlər paralel şəkildə və çevik ritmdə həyata keçirilməlidir.

Öyrənənlərin kreativ potensialının inkişafına zəmin yaradan, kadr hazırlığının səmərəsini yüksəldən kreativyönümlü təlim konsepsiyasının işlənilməsi labüddür. Konsepsiya təhsilin qarşısına qoyulan müasir tələblərə cavab verməli, dünya miqyasında baş verən dəyişiklikləri əks etdirməlidir.

Ali məktəblər təlim məqsədlərini bir daha nəzərdən keçirməli, ümumiyyətlə, qiymətləndirmə sisteminə bütövlükdə yenidən baxmalıdırlar. Qiymətləndirmə təlim-tədrisin mühüm komponentidir. O, prosesin keyfiyyəti haqqında fikir bildirmək, zəif və üstün cəhətləri üzə çıxarmaq və yaxşılaşdırmaq imkanı verir. Bu baxımdan ali təhsil müəssisələrinin professor-müəllim heyəti üçün kreativ tapşırıqların tərtibi və qiymətləndirilməsi ilə bağlı müvafiq təlim və seminarlar keçilməlidir.

Summativ qiymətləndirmə üçün tapşırıqların hazırlanması ilə yanaşı, kreativ prosesə zəmin yaradan, onun inkişafına təkan verən praktikyönümlü çalışmaların tələbələrə təqdim edilməsi, nəticələrin formativ qiymətləndirmə vasitəsilə ölçülməsi yekunda uğur qazanmağa zəmanət verir.

Mövcud qiymətləndirmə siyasəti ilk növbədə təhsil paradiqminin dəyişməsində öz əksini tapmalı, ənənəvi qiymətləndirmə metodlarından tamamilə imtina olunmalı və ya dövrün dinamik tələbləri ilə səsləşən interpretasiyada tətbiq edilməlidir.

**Tədqiqatın əsas elmi ideyaları, alınan nəticələr aşağıdakı elmi əsərlərdə dərc edilmişdir:**


1. Н.Зейналова. Мотивация как основное условие развития креативности // Российкая наука. Направления, идеи, результаты. Сборник статей по материалам международной научно-практической конференции, 31 марта 2018 г., s. 91-95
2. N.Zeynalova. Creativity as a component of innovation // PETRA Workshop held at the Universitat Politecnica de Valencia (Spain) on 22nd June 2018, file:///C:/Users/ADUINVTIT0079/Downloads/PETRA_ebook%20(1).pdf
3. N.Zeynalova. Kreativlik probleminin ədəbiyyatda qoyuluşu / Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Təhsildə tarixilik və müasirlik" mövzusunda X Ümumrespublika elmi-praktik konfransı, Bakı Dövlət Universiteti, 8 may 2018, s. 202-203
4. N.Zeynalova. Kreativlik anlayışının məzmununa dair // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş Müəllim hazırlığı strateji hədəflərdən biri kimi. Respublika elmi konfransı. Təhsil institutu, 18 may, 2018, s. 78-80.
5. N.Zeynalova. Tələbələrdə kreativliyin inkişafının əsas şərtləri // Elmi əsərlər (humanitar elmlər seriyası), NDU №1, 2018, s. 36-42.
6. Н.Зейналова. Категории креативности и их роль в учебном процессе // Вестник Академии Педагогических Наук Казахстана, Алматы, 2018, № 4, s. 27-34.
7. N.Zeynalova. Kreativlik tələbələrin real həyata hazırlığının əsası kimi // Xarici dillərin tədrisinin aktual problemləri, respublika elmi-praktik konfransı, 6-7 dekabr 2018, Bakı, s. 206-208.
8. N.Zeynalova.Təlim prosesində kreativ və tənqidi təfəkkürün qarşılıqlı əlaqəsi // Kurikulum Elmi-metodik jurnal, Bakı, 2018, № 4 (44) s. 44-51.

9. N.Zeynalova. Ali məktəb tələbələrində kreativliyin inkişaf etdirilməsi üçün təlim metodları //Azərbaycan məktəbi elmi-nəzəri pedaqoji jurnal, Bakı, 2018, № 2, s.41-50.

10. N.Zeynalova. Pedaqoji proses zamanı müəllimin kreativ fəaliyyətinin təşkili // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, BSU, 2018, № 5, s. 258-265.

11. N.Zeynalova. Qiymətləndirmənin təhsilalanlarda kreativliyin inkişafına təsiri // Bakı Universitetinin xəbərlər, Sosial-Siyasi elmlər seriyası, 2018, № 3, s. 100-110.

12. N.Zeynalova. Pedaqoji proses zamanı müəllimin kreativ fəaliyyətinin təşkili // Azərbacan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universiteti, Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri, №5, 2018, s.258-264.

13. N.Zeynalova. Müasir təhsil paradiqmi, təlim proqramları və kreativlik //Pedaqoji universitetin xəbərləri, 2019, №2, c.67, s.247-257.

14. N.Zeynalova. Kreativlik və onun qiymətləndirilməsi // Pedaqogika. Pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri-metodik jurnal, 2019, №1, s. 69-82.

15. N.Zeynalova. Tələbələrdə kreativliyin inkişaf etdirilməsində yeni təlim texnologiyalarından istifadə // Elmi Əsərlər, Azərbaycan Respublikasının Təhsil İnstitutu, 2018, №8, s.289-296 s.

16. Н.Зейналова. Креативная деятельность преподавателя как фактор, обеспечивающий развитие креативности обучающихся // Инновационные проекты и программы в образвании №1, 2020 file:///C:/Users/ADUINVTIT0079/Downloads/kreativnaya-deyatelnost-prepodavatelya-kak-faktor-obespechivayuschiy-razvitie-kreativnosti-obuchayuschihsya%20(1).pdf

17. N.Zeynalova. Təhsilalanlarda kreativliyin inkişafının psixoloji əsasları // Elmi Əsərlər, Bakı Qızalr Universiteti, 2019 (37), №1, s. 76-84.

18. N.Zeynalova. “Kreativ” və “tənqidi” təfəkkür anlayışlarının məzmunu, təcrübədə tətbiqi məsələləri // Bakı Universitetinin xəbərlər, Sosial-Siyasi elmlər seriyası, 2019, №1, 69-78 s.

19. N.Zeynalova. Kreativlik ali təhsilin keyfiyyət göstəricisi kimi // Kurikulum Elmi-metodik jurnal, Bakı, 2019, №3, 28-36 s.

20. N.Zeynalova. Kreativliyin inkişafında TEC-in, beynəlxalq təcrübənin, əməkdaşlığın rolu barədə // Pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri-metodik jurnal, №3, 2019, 6-16 s.

21. N.Zeynalova. Qlobalaşma şəraitində kreativlik və innovasiya anlayışlarının məzmunu // Elmi xəbərlər, ADU, Bakı, 2018, № 3-4, 128-135 s.

22. N.Zeynalova. Kreativliyin formalaşmasına təsir göstərən amillər və onların təhlili // Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, №4, 2021, 82-91 s.

23. Н.Зейналова. О развитии креативности в высшем образовании // Муниципальное образование:инновации и эксперимент, 2018, № 6 (63) 35-42 s.

24. N.Zeynalova. Kreativliyin inkişafında tələbə elmi cəmiyyətinin, beynəlxalq təcrübənin, əməkdaşlığın rolu barədə // Pedaqogika. Pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri-metodik jurnal, 2019, №1

25. Н.Зейналова. Методы и техники развития креативности у обучающихся // Муниципальное образование:инновации и эксперимент, 2019, № 3 (66), http://downloads.in-exp.ru/other/MO_3-2019_av.pdf, s. 25-32.

26. N.Zeynalova. Multikultural təhsil mühitinin kreativliyin inkişafına təsiri / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası" adlı IV Beynəlxalq elmi konfrans. Bakı, 07 may 2021.

27. N.Zeynalova. Erkən yaş dövürndə təlimin kreativ formada təşkili // Proqram ADU-nun Təhsil 1 fakültəsinin Elmi şurasının 14 fevral 2022-ci il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur, protokol №21. G.M.Abdullayeva

28. N.Zeynalova. Exploring the impact of ICT in student creativity // 2nd World Conference on Education and Teaching. ETCONF.October 15-17, 2021. Budapest, Hungary.https://www.dpublication.com/proceeding/2nd-etconf/#Table-of-Contents. https://www.dpublication.com/wp-content/uploads/2021/10/T-707.pdf. https://www.dpublication.com/proceeding/2nd-etconf

29. N.Zeynalova. Student Creativity and Talent Development in Higher Education Institutions of AzerbaijanMəqalə ICIEI 2022: 2022 The 7th International Conference on Information and Education Innovations Belgrade Serbia April 14 - 16, 2022 ISBN: 978-1-4503-9619-6. Publisher: Association for Computing Machinery, New York, NY,United States. https://dl.acm.org/doi/proceedings/10.1145/3535735

30. N.Zeynalova. Comparative analysis of the Soviet education system and modern education system affecting creativity in students// Вопросы истории, 2022, NO. 11(3). **Ошибка! Недопустимый объект гиперссылки.**, s. 256-263.

31. N.Zeynalova. Student creativity in higher education and its importance // UNIVERSIDAD Y SOCIEDAD. Scientific magazine of the University of Clenfuegos, 15(3), ISSN: 2218, 3620PUBLICADO: 2023-05-31. https://rus.ucf.edu.cu/index.php/rus/article/view/3725 s. 68-77.

Dissertasiyanın müdafiəsi 29 noyabr 2024-cü il tarixdə saat 14.00-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının bazasında yaradılmış BED 2.15 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 68,

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 oktyabr 2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.10.2024
Kağızın formatı: $60x84^{1/16}$
Həcm: 86772
Tiraj: 100